www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 avqust 2023-cü il Çərşənbə № 137 (8273) Qiyməti 60 qəpik

**Xəbər**

## Xəzərdə təhlükə-şimal hissəsi cənuba doğru sürüşəcək

yazısı səh.10-da

**Gündəm**

### Naxçıvan Ali Məclisinin 8 aydır boş qalan sədr kürsüsü




Deputat bunu mümkün konstitusiya dəyişikliklərinin ola biləcəyi ilə izah edir

yazısı səh.6-da

### Separatçı rejimin "rəhbərləri" əfv edilə bilməz

yazısı səh.7-də

### Vaşinqtonda görüş gözlənilir?

yazısı səh.7-də

### İrəvanın yeni həmləsi və hiyləsi

yazısı səh.9-da

### İstidə iş rejimi necə olmalıdır?

yazısı səh.10-da

### Uydurma "Qarabağ blokadası" haqda "film"

yazısı səh.11-də

### Ermənisayağı ordu "islahatları" - nazir müavini də mülki şəxs oldu

yazısı səh.11-də

### Koronavirusla bağlı şok payız xəbərdarlığı-Azərbaycan da hazırlaşmalı...

yazısı səh.13-də

### Dövlət borcu ilə bağlı yeni limit: daha çox borc alacağıq, yoxsa...

yazısı səh.12-də

### Siqaretin qiymətini onlar qaldırıb

yazısı səh.13-də

### Avropa İttifaqından ermənilərə "dərs" üçün 32 milyonluq yardım

yazısı səh.3-də

# QARABAĞDAKI GƏRGİNLİKDƏ SOROS İZİ

Ermənistanda BMT bayrağı altında beynəlxalq sülhməramlı missiyanın bölgəyə yerləşməsi üçün yeni kampaniya başlanıb, Qərbdən qrant alan QHT-lər fəallaşıblar



yazısı səh.8-də

# Abbaszadə gedir, Əmrullayev də?

Hələ 2011-ci ildə müəllimlərin yaş həddi ilə bağlı danışarkən DİM rəhbəri "65 yaşıma çatanda, mən də gedəcəyəm" demişdi; elm və təhsil naziri işdən çıxarılarsa....

yazısı səh.3-də



### "Azərbaycana yarım milyon avro cərimə, Leyla Yunusdan yeni "siyahı"...

yazısı səh.4-də



### Əsir oğlu ilə 4 ay sonra danışdı

yazısı səh.5-də



### Sülhməramlıların yerinə türkdilli dövlətlərin polis birlikləri - yeni gəlişmə

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 137 (8273) 9 avqust 2023



## Vətən müharibəsi iştirakçısı Rusiyada göldə boğuldu

**İkinci Qarabağ müharibəsinin iştirakçısı Xəlilov Elgün Xəyal oğlu göldə boğulub. Hadisə Rusiyanın Moskva şəhərində baş verib. Elgün Xəlilov şəhərin Kuzminka rayonunda yerləşən göldə boğularaq dünyasını dəyişib.**

22 yaşlı Elgün Lənkəran rayonunun Xolmili kəndindəndir. O, Füzulinin və Xocavəndin işğaldan azad olunmasına görə təltif edilib.



## Şəhidin nəşi 31 il sonra tapılıb?

**Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyası şəhidin nəşinin 31 il sonra tapılması ilə bağlı yayılan xəbərə aydınlıq gətirib.**

Dövlət Komissiyasından daxil olan məlumatda deyilir: "Mətbuat nümayəndələrinin çoxsaylı suallarını nəzərə alınaraq, I Qarabağ müharibəsində itkin düşdüyü bildirilən şəhid Həsənov Rəhman Əhliman oğlunun cəsədinin 31 ildən sonra tapılması və ekshumasiya edilməsinə dair kütləvi informasiya vasitələrində yayılmış məlumatla bağlı tərəfimizdən araşdırma aparılıb.

Məlum olub ki, Həsənov Rəhman Əhliman oğlu 1992-ci ildə Ermənistan silahlı qüvvələrinə qarşı döyüşdə qəhrəmancasına həlak olmuş və nəşi elə həmin vaxt döyüş bölgəsindən götürülərək Laçın rayonu, Suarası kəndində dəfn edildiyi üçün Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyata alınmayıb. Bu günlərdə onun məzarının ətrafında yaxınları tərəfindən təmizlik və abadlıq işləri aparılıb. Dövlət Komissiyası, həssas xarakter daşıdığını nəzərə alaraq, itkin düşmüş şəxslər mövzusunda yoxlanılmamış məlumatların yayılmamasını xahiş edir".

## 10-a yaxın icra başçısı işdən çıxarılır-iddia

**Bir neçə rayonun icra başçısı dəyişdiriləcək. Konkret.az bildirir ki, bu ilin sentyabrına qədər 10-a yaxın şəhər və rayonun icra başçısı vəzifəsindən azad ediləcək.**

Vəzifəsini itirəcək icra başçıları arasında uzun müddət kreslodan yapışıb qalan məmurlar üstünlük təşkil edir. Məlumatlı mənbənin dediyinə görə, Qubadlı rayonunun icra başçısı Malik İsaqov, Şabranın icra başçısı Novruz Novruzov, Qaradağın başçısı Süleyman Mikayılov da bu məmurlar arasındadır.

Mənbənin məlumatına görə, vəzifədən gedəcək icra başçılarının bəziləri haqqında hüquqi müstəvidə ciddi ölçü götürüləcək. Sentyabra qədər bir neçə böyük şəhərlərin icra başçılarının da vəzifəsini itirməsi gözlənilir.

## "Neftçi"dən xəbərdarlıq-stadiondan çıxarılacaq

**"Neftçi" UEFA Avropa Konfrans Liqasının III təsnifat mərhələsinin ilk oyunu çərçivəsində 10 avqust saat 21:00-da "Neftçi Arena"da Türkiyənin "Beşiktaş" klubu ilə qarşılaşacaq.**

Klubun mətbuat xidməti bununla əlaqədar olaraq məlumat paylaşıb.

"Həm ölkəmizdə olan, həm də qardaş ölkədən gələcək azarkeşlərin təhlükəsizliyinin yüksək şəkildə təmin olunması və oyun zamanı azarkeşlər arasında yarana biləcək mümkün arzuolunmaz halların qarşısını almaq məqsədilə müvafiq preventiv tədbirlərin görülməsi planlaşdırılır. Oyuna olan böyük marağı nəzərə alaraq "Neftçi Arena"da keçiriləcək görüşdə İstanbul klubunun azarkeşləri üçün xüsusi sektor ayrılacaq. "Beşiktaş" azarkeşləri bu sektora bilet əldə etmək üçün qeyd edilən komandanın müvafiq qurumları ilə əlaqə yaratmalıdır.

"Neftçi" azarkeşləri üçün nəzərdə tutulacaq digər sektorlarda isə təhlükəsizlik məqsədilə İstanbul klubunun forması və ya digər atributunu daşıyan azarkeşlərin, o cümlədən "Neftçi"yə aid olmayan, digər komandalara məxsus atributları daşıyan azarkeşlərin oyunu izləməsi məhdudlaşdırılacaq. Belə hallara rast gəlindikdə həmin azarkeşlər dərhal təhlükəsizlik əməkdaşları tərəfindən stadiondan çıxarılacaq.

"Neftçi" PFK olaraq azarkeşlərin təhlükəsizliyi üçün nəzərdə tutulan bu tədbirlərin anlayışla qarşılanacağına inanırıq".

Qeyd edək ki, oyunun biletləri bu gün iticket.az saytında satışa çıxarılacaq.

# Qubad İbadoğluna görə saxlanılan alim kimdir?



**Türkiyədə yaşayan azərbaycanlı alim Fazil Qasımov Azərbaycana gətirilərək saxlanılıb.**

Musavat.com xəbər verir ki, İstanbul şəhərində yaşayan Fazil Qasımov Türkiyənin Özyeğin və Niderlandın Tilburq Universitetində Beynəlxalq Biznes İdarəçiliyi ixtisası üzrə təhsil alıb. Daha sonra təhsilini Türkiyənin İstanbul Universitetində doktorantura pilləsi üzrə davam etdirib. Hüquq və iqtisadiyyat üzrə fəlsəfə doktorudur.

Rəsmi məlumata görə, cinayət işi ilə əlaqədar axtarışda olan F.Qasımov saxlanılıb ölkəyə gətirilərək DİN əməkdaşları tərəfindən istintaqa təhvil verilib.

Fazil Qasımovun Qubad İbadoğlunun işi ilə əlaqədar saxlanıldığı bildirilir.

Qeyd edək ki, 15 gün əvvəl Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlu Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə ittiham olunaraq həbs edilib. Nərimanov Rayon Məhkəməsinin qərarı ilə onun barəsində 3 ay 26 gün müddətinə həbs-qətimkan tədbiri seçilib.

## Ermənistan əhalisi artıb

**2023-cü il iyulun 1-nə Ermənistan əhalisinin sayı 2 milyon 985,1 nəfərə yüksəlib. Novator.az-ın məlumatına görə, hesabatı yayan Statistika Komitəsi bildirir ki, 2022-ci ilin eyni dövrünə ölkənin 2 milyon 961,9 min nəfər daimi sakini olub, bir ildə 23,2 min nəfər artım rəsmiləşib.**

Açıqlamada əhalinin yarım il üzrə təbii artımı (doğulanlar və ölənlərin nisbəti) 35,8 faiz göstərilir.

Yanvar-may aylarında ölkədə 12472 nəfərin vəfat etdiyi, ötən ilin eyni dövrünə nəzərən 15 faiz azalma qeydə alındığı xəbər verilir.

Statistikaya görə, ölənlərin 54 faizi qan dövranı sistemi xəstəliklərindən, 20,2 faizi onkoloji şişdən, 9,4 faizi tənəffüs orqanlarında, 4,7 faizi həzm orqanlarında problemlərdən əziyyət çəkib.

Ölənlərin 5,3 faizinin koronavirus infeksiyasına yoluxduğu, 3,7 faizinin zəhərlənmə, xəsarət və bədbəxt hadisənin qurbanı olduğu vurğulanır.

## İtkin düşən qızla oğlan Bakıda tapıldı



**İsmayıllı rayonunda itkin düşən 19 yaşlı qız və oğlan tapılıb.**

Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin Şəki regional qrupundan məlumat verilib. Onların Bakı şəhərində olduqları müəyyən edilib.

Bildirilib ki, İsmayıllı rayonunda itkin düşən 2004-cü il təvəllüdlü Aytac Mayılova və Ağaverdi Xəlilov Bakı şəhərində tapılıblar, axtarışlar dayandırılıb.

Qeyd edək ki, gənc qız və oğlan ötən aydan itkin kimi axtarışda idilər.

## Britaniya minaların təmizlənməsi üçün ölkəmizə 500 min funt-sterlinq ayırır

**Böyük Britaniya hökuməti Azərbaycanda minaların təmizlənməsini dəstəkləmək üçün daha 500 min funt-sterlinq ayırıb. Bu barədə ölkənin Azərbaycandakı səfiri Ferqus Old sosial şəbəkələrdə bildirib.**

Bu vəsait insanların azad edilmiş ərazilərə qayıtması zamanı minalardan təmizləmə və təhlükəsizlik imkanlarının yaradılmasına yönəldiləcək.

Britaniya hökuməti 2020-ci il müharibəsindən sonra Azərbaycanda minalardan təmizləmə işlərinə artıq 1,5 milyon funt-sterlinq ayırıb. Bu vəsaitlər Tərtər, Ağdam, Füzuli və Goranboy rayonlarında istifadə olunub. Eyni zamanda 3185 mina və partlamamış mərmi müəyyən edilib.

Araşdırmalar göstərib ki, bu ərazilərdəki 187 kənddən 112-si hələ də yaşamaq üçün təhlükəlidir.

## Kərim Vəliyev Türkiyənin kəşfiyyat rəisi ilə görüşdü




**Avqustun 8-də Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Baş Qərargahının Kəşfiyyat rəisi, general-polkovnik İsmayıl Günaydının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Tərəflər hər iki ölkənin orduları arasında qarşılıqlı münasibətlərin, eləcə də hərbi kəşfiyyat sahəsində əməkdaşlığın inkişaf etdiyini xüsusi qeyd ediblər.

Görüşdə iki qardaş ölkə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

## Dərslər sentyabrın 1-i... başlamayacaq



**Azərbaycanda bu il dərslərin sentyabrın 1-i başlaması ilə bağlı fikirlər səsləndirilir. Hətta iddia edilir ki, bəzi məktəb direktorları bununla bağlı müəllimlərə məlumat verib.**

Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə Əlaqələr sektorunun müdiri Cəsarət Valehov azxəbər.com-a açıqlamasında bu məlumatın doğru olmadığını deyib: "Tamamilə yanlış məlumatdır. Bu il dərslər 15 sentyabr tarixində başlayacaq".

## Qazdığı qəbirə düşüb öldü

**Ağsu rayonunda başqasına qəbir qazan kişi qazdığı qəbirə yıxılaraq ölüb. Lent.az xəbər verir ki, Ağsu rayonunda yerləşən məzarlıqda qəbirqazan işləyən, 54 yaşlı Səməndər Oktay oğlu Şirəliyev qazdığı məzara yıxılaraq ölüb.**

İlkin məlumata görə, S.Şirəliyev ürək tutmasından dünyasını dəyişib.

YENİ MÜSAVAT
N 137 (8273) 9 avqust 2023

# Abbaszadə gedir, Əmrullayev də?

## Hələ 2011-ci ildə müəllimlərin yaş həddi ilə bağlı danışarkən DİM rəhbəri “65 yaşıma çatanda mən də gedəcəyəm” demişdi; elm və təhsil naziri işdən çıxarılarsa...

**Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadənin istefaya göndəriləcəyi ilə bağlı xəbərlər yenidən gündəmə gəlib. Yenisabah.az-a xəbər verir ki, DİM sədri ilə bağlı qərar sentyabrın ilk ongünlüyündə elan olunacağı gözlənilir. “Bu il keçirilən buraxılış və birinci blok imtahanlarından sonra şikayətlərin kütləvi xarakter alması bu sektorda dəyişiklikləri qaçılmaz edib. İqtidar düşərgəsində Məleykə Abbaszadənin təxminən 30 il davam edən hakimiyyətinə son qoyulmasının vaxtı çatdığına dair yekdil mövqe var”, - deyə saytın xəbərində bildirilir.**

İddia olunur ki, Məleykə Abbaszadənin vəzifəsi Emin Əmrullayevə həvalə olunacaq. Məktəblərdəki neqativ halların ictimailəşməsindən sonra sürətlə nüfuzdan düşən gənc nazirin bu təyinata özünün xilası kimi baxdığı deyilir. Əmrullayevin karyerası ilə bağlı yeni qərarın da yeni tədris ili başlayana kimi veriləcəyi gözlənilir.


Məleykə Abbaszadə


Emin Əmrullayev

İndiyədək 5 təhsil naziri ilə işləmiş DİM sədrinin vəzifədən çıxarıla biləcəyi ilə bağlı iddialar yeni deyil. Son aylar isə bu mövzuda xəbərlərin intensivləşdiyi də nəzərə çarpır. İddialara görə, qəbul imtahanları da daxil, DİM ətrafında son günlər artan müzakirələr M.Abbaszadənin vəzifəsi ilə vidalaşacağını mümkün edir.

Ekspertlər xüsusilə qeyd edir ki, DİM-də ictimai nəzarət çox zəifdir. Yeni Məleykə Abbaszadənin rəhbərlik etdiyi qurum kifayət qədər qapalı xarakter daşıyır, digər qurumlarda ictimai nəzarət şuraları fəaliyyət göstərsə də, DİM-də bu, çox zəifdir. Qeyd edək ki, DİM sədri Məleykə Abbaszadənin artıq 70 yaşı tamam olub. O, 29 ildir bu vəzifədə çalışır. M.Abbaszadə hələ 2011-ci ildə müəllimlərin yaş həddi ilə bağlı danışarkən “hər bir insan davamçılarını özü hazırlamalı və buna çox normal hal kimi baxmalıdır. 65 yaşıma çatanda mən də gedəcəyəm” demişdi.

Emin Əmrullayev 2020-ci ilin iyulun 27-də təhsil naziri təyin edilib. 2022-ci ilin iyununda Prezident İlham Əliyev “Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Fərman imzalayıb. Fərmana əsasən, Təhsil Nazirliyi Elm və Təhsil Nazirliyi adlandırılıb. Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Elm və Təhsil Nazirliyinə həvalə edilib. Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Hüseyn Cavidin Ev Muzeyi əmlakları ilə birlikdə Mədəniyyət Nazirliyinin tabeliyinə verilib. Yəni Əmrullayevin səlahiyyətləri də, nəzarət etdiyi sahə də genişlənib. Artıq bir müddətdir ki, Emin Əmrullayevin də adı tez-tez işdən çıxarıla biləcək nazirlər sırasında hallanır. Buna səbəb kimi isə təhsil sektorunda yaranmış narazılığın sürətlə böyüməsi göstərilir.

Ekspertlər də o düşüncədədir ki, ümumilikdə təhsil sistemində mühüm dəyişikliklərin edilməsinə ehtiyac var. Çünki son zamanlar təhsil sahəsində ciddi problemlər yaşanır və bu vəziyyət aradan qaldırılmalıdır.

Bəziləri də o fikirdədir ki, Əmrullayevin təhsil sistemində böyük dönüş olacağı ilə bağlı gözləntiləri doğrulmayıb, aparılan islahatlar heç bir nəticə və fayda vermir.

**Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov** ötən ay bu mövzu ilə “Yeni Müsavat”a açıqlamasında demişdi ki, E.Əmrullayevin hədəfdə olmasının bir neçə səbəbi var: “Səbəblərdən biri ondan ibarətdir ki, Emin müəllimin Mikayıl Cabbarovun və Ceyhun Bayramovun başladığı islahatları davam etdirməsi, onları bir az da dərinləşdirməsi onu hədəfə gətirir. Fikrimi əsaslandıracağam. Direktorların, müəllimlərin işə qəbulunda şəffaflıq, son olaraq sertifikasiyanın təşkili bu qədər qanunsuz vəsaitin aradan çıxarılması ilə nəticələnib. Bu gün heç kim deyə bilməz ki, hansısa müəllimi işə təyin etdirmişəm. Kimsə deyə bilməz ki, direktorları rüşvətlə məktəbə təyin edirlər. Ümumiyyətlə, təhsil sektorunda rüşvətlə mübarizə naziri hədəfə gətirib. Hamımız cəmiyyətdə təhsilin təəssübkeşləri kimi özümüzü göstəririk. Amma əməli işə gələndə bunu edirikmi? Nazirin çıxışında böyük həqiqət var. Etibar Əliyev də dostumdur, onun da çox maraqlı fikirləri var. Düşünürəm ki, təhsil sahəsində təcrübəli adamlar tez-tez aktual problemləri müzakirə etməlidir. Emin Əmrullayev bu gün nazirdir, sabah başqası ola bilər, yanaşma təhsil naminə olmalıdır. Fərdlər hədəfə götürülməməlidir”.

Nazirin işdən çıxarılacağı barədə iddialar avqustun 7-də Prezident İlham Əliyev Şəmkir şəhəri Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının açılışında iştirak etməməsi fonunda diqqət çəkir. Bildirilir ki, təqdimat mərasimində elm və təhsil naziri Emin Əmrullayevin əvəzinə, onun müavini Firudin Qurbanov iştirak edib.

❑ **Orxan ƏLİYEV, “Yeni Müsavat”**

# Avropa İttifaqından ermənilərə “dərs” üçün 32 milyonluq yardım

## Sülh danışıqlarında vasitəçilik edən Brüsselin Ermənistan hökumətinə qayğısı xristian təəssübkeşliyindən qaynaqlanır, yoxsa...

**Avropa İttifaqı Ermənistan hökumətinə təbiət və dəqiq elmlər, eləcə də mühəndislik (STEM fənləri) üzrə məktəb laboratoriyaları üçün 32 milyon avro ayırmaq barədə qərar verib. Proqrama Göyçə, Vedi və Ağadərəsi rayonlarının bütün məktəbləri, eləcə də Zəngəzur vilayətinin Qafan şəhərindəki 13 məktəb - ümumilikdə isə 340-a yaxın məktəb daxil olacaq: “Burada laboratoriyalar tikiləcək, müəllimlər qeyri-formal təhsil metodlarını əhatə edən yeni tədris metodikası üzrə yenidən hazırlaşacaqlar”.**



Digər məsələləri bir kənara qoysaq, sülh danışıqlarında vasitəçilik edən Brüssel-Avropa İttifaqının Ermənistan hökumətinə təhsilə görə 32 milyon avro ayırması ikili standartın daha bir nümunəsidir.

*Belə ki, müharibədən ən çox əziyyət çəkən, işğal dövründə yaşayış məntəqələri məhv edilən ölkə Azərbaycan, amma yardım proqramlarına cəlb olunan Ermənistan. Aİ-nin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycan, maliyyə yardımı alan Ermənistandır. Bu ikili yanaşma nədən xəbər verir? Azərbaycana bu münasibət nəyin göstəricisidir?*

Mövzu ilə bağlı **politoloq Qabil Hüseynli** “Yeni Müsavat”a dedi ki, humanitar yardımlardan tutmuş indi də təhsil üçün qrant layihələrinin ayrılması faktiki olaraq Ermənistanın hərtərəfli qayğı ilə əhatə olunmasının göstəricisidir: “Bu həm də xristian təəssübkeşliyinin nümunəsidir. Çünki bölgədə işğalçı müharibəni aparan Ermənistan olub. Azərbaycan torpaqları Ermənistan vandalizminə məruz qalıb və nəticə etibarilə Azərbaycana 150 milyard dollardan çox ziyan dəyib. Bununla bağlı olaraq Qərb bir dəfə də olsun minaların təmizlənməsi ilə bağlı nə maliyyə yardımı, nə də qrant layihələrinə vəsait ayırıb. Ermənistanı belə bəzəyə-bəzəyə, müxtəlif adlarla maliyyə yardımı ayırmalarına bəraət qazandırmağa çalışmaları əslində bölgədə sabitliyə deyil, qeyri-sabitliyə xidmət edir. Təcrübədə sübut olunub ki, Ermənistan Qərbdən aldığı maliyyə yardımlarını, qrantları silah alınmasına, hərbi infrastrukturun möhkəmləndirilməsinə, bir sözlə, militarizm siyasətinə yönəldib. Üstəlik, Azərbaycan tərəfinə belə diqqətsizlik, Azərbaycanın Avropanın enerji təchizatında oynadığı rola heç bir əhəmiyyət verməmək, heç olmasa bölgədə sabitlik yaratmaq adı altında bunu edirlərsə, onda gərək hər iki ölkəyə eyni cür yanaşaydılar. Eyni gözlə baxardılar ki, bu, xalqlarda bir-birinə qarşı hər hansı qısqanclıq və kin-küdurət oyatmasın. Əslində bu cür birtərəfli siyasət, birtərəfli yanaşma Ermənistanı həm maliyyə cəhətdən, həm siyasi cəhətdən köməklik göstərilməsi, bölgədə sabit münasibətlərin yaranmasına xidmət etmir. Əksinə, Azərbaycana qarşı kin-küdurət qusan bir ölkəni daha da ürəkləndirir, arxasında hansısa güclər hiss edərək sülh danışıqlarında da, bütövlükdə Azərbaycanın ərazi bütövlüyünə hörmətdə də onu daha da barışmaz edir. Buna həm də Qarabağın dağlıq hissəsində yaşayan erməniləri də aid etmək lazımdır”.

Politoloq əlavə edib ki, Qərbin bu yanaşması kökündən yanlışdır: “Burada qızışdırıcı elementlər var. Ermənistanı ürəkləndirmək və daha mənfur niyyətlərə düşmək istəyi var burada. Fikrimcə, Azərbaycan tərəfi bununla bağlı hansısa formada diplomatik tərzdə, Qərbin bu cür birtərəfli hərəkətlərinin bölgədə sabitliyə xidmət etmədiyini, əksinə, bölgədəki tarazlığı, sabitliyi pozduğunu və nəticə etibarilə Ermənistanı yeni-yeni sevdalara təhrik etdiyini göstərməlidir. Bunu biz təcrübədə dəfələrlə görmüşük. Bunlar humanitar yardımları top-tüfəng, silah alınmasına sərf ediblər. Ona görə də Qərbin bu yanaşması bizi xeyli məyus edir. Qərbin sülhyaratma prosesində ədalətli, obyektiv ola biləcəyinə şübhələr yaradır”.

**AMİP-in sədr müavini Afsəddin Nəbiyev** mediaya açıqlamasında deyib ki, Ermənistana himayədarlıq Avropa dövlətlərinin “çoxüzlü” siyasətini göstərir: “O qənaətdəyəm ki, burada xristian təəssübkeşliyi faktoru var. Hazırda baş verən qlobal geosiyasi proseslər, sadəcə, Rusiya amilini Avropa dövlətləri ilə əvəzləməyə sövq edib. Ermənistan bu mənada tərəf deyil, Cənubi Qafqazda əlverişli mövqe uğrunda aparılan mübarizədə oyuncaq bir alətdir. Yeni Ermənistan bu dövlətlərə təkcə dini faktora görə ”cəlbedici" tərəfdaş deyil, onlara əsas oyuncaq alət qədər gərəklidir".

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**



# "Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq"

## Rasim Balayev Prezidentlə görüşündən danışdı

**Prezident İlham Əliyev avqustun 8-də Xalq artisti Rasim Balayevlə görüşüb. Dövlət başçısı 75 yaşlı aktyora "İstiqlal" ordenini təqdim edib.**



"Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq". Xalq artisti Prezident İlham Əliyevlə səmimi söhbətində deyib. "Dediyim odur ki, mən Sizin apardığınız bütün siyasəti - daxili və xarici siyasəti dəstəkləyirəm. Möhtəşəm Qələbə də Sizin adınızla bağlıdır. Mən xalqın arasında oluram, bütün təbəqələrlə görüşürəm, Siz öz adınızı tarixə bir Ali Baş Komandan kimi, elə əsl Babək kimi yazdınız. Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq. Bu mükafat Azərbaycan sənətinə, sənətkarlara verilən qiymətdir. Biz, başda Siz - Ali Baş Komandan olmaq şərtilə, qəhrəmanlarımızı, qazilərimizi mütləq kino xətti ilə vəsf etməyə borcluyuq. Bu, bizim borcumuzdur, biz gərək bunu edək", - Xalq artisti söyləyib.

Doğum günündə Prezidentlə görüşən Rasim Balayev təəssüratlarını modern.az-la bölüşüb. O, görüşün müsbət ab-havada keçdiyini, Prezidentlə kinonun durumu ilə bağlı müzakirələr apardığını söyləyib.

"Prezidentlə görüşüm çox gözəl keçdi. Ona təşəkkürlərimi bildirdim. Biz kinonun hazırkı vəziyyəti barədə danışdıq. Prezident İlham Əliyev kinonun inkişafı üçün nə kömək lazım olsa, edəcəyini dedi. Kinonu inkişaf etdirmək lazımdır. Bizim də borcumuz kinonu inkişaf etdirməkdir".

Xalq artisti doğum günü ilə əlaqədar xeyli sayda təbriklər aldığını vurğulayıb: "Minlərlə adam məni təbrik etdi. Dünəndən telefona cavab verirəm, telefonum susmur. Özümə yeni yaşımda ancaq cansağlığı arzu edirəm. Başqa nə deyə bilərəm axı".



# Özbəkistan prezidenti Füzulidə açılışda iştirak edəcək

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin avqustda Azərbaycana səfəri gözlənilir.**

Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə keçirilən "Özbəkistan və Azərbaycan: əməkdaşlığın yeni üfüqləri" adlı dəyirmi masada BMTM-nin rəhbəri Fərid Şəfiyev deyib.

O, Özbəkistana Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkür edib: "Azərbaycan işğaldan azad edilmiş ərazilərinin bərpası prosesində Özbəkistanın dəstəyini hiss edir".

Mirziyoyevin səfəri zamanı Füzulidə Özbəkistan tərəfindən tikilən məktəbin açılışının olacağı gözlənilir.

# İsrailin nazirləri Azərbaycana gələcək

**İsrailin kənd təsərrüfatı və kəşfiyyat nazirlərinin Azərbaycana səfəri gözlənilir.**

Bu barədə İsrailin "Now14Israel" nəşri məlumat yayıb.

Səfərin nə vaxt baş tutacağı və gündəliyi açıqlanmayıb.

Nəşr xatırladır ki, son aylarda İsrailin üç yüksək vəzifəli rəsmisi Bakıya səfər edib, bunlar müdafiə naziri Yoav Qalant, prezident İshaq Hersoq və xarici işlər naziri Eli Koendir.




# Azərbaycana yarım milyon avro cərimə, Leyla Yunusdan yeni "siyahı"...

## Hüquq müdafiəçiləri hesab edir ki, ölkəni ziyana salan məhkəmə hakimləri ilə bağlı ciddi cəza tədbirləri görülməlidir

**Hüquqşünas Xalid Ağalıyev Avropa İnsan Haqları Məhkəməsinin 2023-cü il qərarları haqda yazıb. Novator.az-ın məlumatına görə, o yazır ki, yanvar-iyun aylarında Azərbaycanla bağlı 25 qərarın 24-də iddia olunan pozuntuların azı biri tanınıb.**

Statistikaya əsasən, yarım ildə dövlətlə anlaşmaya və dövlətin təqdim etdiyi bəyannamələrə əsaslanan 35 qərardad qəbul edilib, 10 qərardadda iddialar qəbuledilməz sayılıb. Bütün qərar və qərardadlar üzrə ümumilikdə 551 min avrodan artıq təzminat müəyyən olunub.

Ümumi hesabata görə, indiyə qədər Avropa Məhkəməsinin Azərbaycanla bağlı 407 qərarından 105-nin icrasına nəzarət qapadılıb. Qərarların 302-si icrasını gözləyir.

Qeyd edək ki, Fransanın Strasburq şəhərində yerləşən, hakimləri Avropa Şurasına üzv ölkələrdən seçilən Avropa Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyasına riayət olunmasına nəzarətə məsuldur. Azərbaycan 1949-cu ildə yaradılmış Avropa Şurasına 2001-ci ildə qoşulub, 2002-ci ildən Avropa Məhkəməsinin təsir dairəsindədir.

Bu arada isə xaricdə yaşayan Leyla Yunus yeni siyasi məhbus siyahısı yayıb. "Turan"ın məlumatına görə, siyasi məhbus sayılan 204 nəfər siyahıda 7 qrupa bölünüb: 147 inanclı, "Gəncə işi" (2018-ci il) üzrə tutulan 22 nəfər, 11 ömürlük məhkum, "Tərtər işi" (2017-ci il) üzrə tutulan 7 nəfər, müxalif partiyaların və hərəkatların 7 üzvü, 5 jurnalist və bloqçu, Almaniyadan deportasiya olunmuş 5 sabiq siyasi mühacir.

Mövzu ilə bağlı **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** "Yeni Müsavat"a danışıb: "Avropa İnsan Haqları Məhkəməsinə Azərbaycandan göndərilən şikayətlərin sayı günbəgün artır. Amma bu o demək deyil ki, bütün bu şikayətlər hüquqi çərçivədə tərtib edilir və əsaslıdır. Bu baxımdan da qərarların müəyyən faiz göstəricilərinə baxanda aydın olur ki, müəyyən səbəblərdən onların bir çoxu tanınmayıb, geri qaytarılıb və yaxud, ümumiyyətlə, baxılmayıb. Lakin, təbii ki, icraata qəbul olunan və baxılan müəyyən işlər, qəbul edilən qərarlar da var. Bu qərarlar da ümumilikdə Azərbaycan məhkəmə sisteminin yol verdiyi qanuna zidd hərəkətlərlə bağlıdır".

Hüquq müdafiəçisi ölkədə məhkəmə sistemində əsaslı islahatlar aparılmasına böyük ehtiyac olduğunu vurğulayıb: "Hər zaman qeyd etmişəm ki, Azərbaycanda məhkəmə sistemində əsaslı islahatlar aparılmalıdır. Baxmayaraq ki, cənab Prezidentin 2019-cu il aprel ayında vermiş olduğu fərman var və bu fərmanlarda çox gözəl, qarşıya qoyulan məqsədlər olsa da, onların bir çoxu hələ də reallaşmayıb. Nəticədə məhkəmə-hüquq sahəsində olan pozuntular məhz sonda Avropa İnsan Haqları Məhkəməsinə gedib çıxır. İndiki açıqlamalarda da qeyd olunur ki, Azərbaycan üzrə 551 min avrodan artıq təzminat müəyyən olunub. Bunu da Azərbaycan manatına çevirdikdə təxminən 1 milyon manatdan çoxdur. Burda söhbət hakimlərin işə yanaşmasından, ədalətli baxmasından gedir və həmişə hesab etmişəm Avropa İnsan Haqları Məhkəməsində Azərbaycan əleyhinə çıxarılan qərarların hamısı üzrə ölkədə bir ümumiləşdirilmə aparılmalıdır. Yəni araşdırılmalıdır ki, hakimlər harada səhv buraxıblar, bunu bilərəkdən, ya savadsızlıqdan ediblər. Bunlar ümumiləşdirilməli və qərəzli şəkildə qərar qəbul edən hakimlər bir formada, savadsızlıqdan qərar qəbul edənlər hakimlər isə başqa formada cəzalandırılmalıdır.

Azərbaycan büdcəsinə yarım milyon avro zərər dəyibsə, təbii ki, bunu dövlət ödəyir və dövlətə dəyən zərərdir. Qeyd etdiyim kimi, bu zərərin səbəbkarı məhz məhkəmə hakimiyyətində bəzi hakimlərin buraxmış olduğu xətaların, səhvlərin, yanlış qərarların nəticəsidir. Ona görə də dövlət onun büdcəsinə kim tərəfindən zərər dəydiyini araşdırmalı və bununla bağlı tədbir görməlidir. Ümid edirik ki, İnam Kərimovun Ali Məhkəməyə təyin edilməsi və Məhkəmə Hüquq Şurasının rəhbərliyinə gətirilməsi Azərbaycanda məhkəmə sistemində müəyyən islahatların reallaşmasına və daha da sürətlənməsinə gətirib çıxaracaq. Arzu edirik ki, Azərbaycanda ədalətli məhkəmə hakimiyyəti formalaşsın və eyni zamanda insanların məhkəmə hakimiyyətinə inamı artsın".

Çingiz Qənizadə xaricdə yaşayan Leyla Yunusun yeni siyasi məhbus siyahısına da münasibət bildirib: "Leyla Yunusun işi ancaq xaricdə oturub müəyyən "siyahı"lar hazırlamaqdır. O, həmişə Azərbaycandakı reallıqları görmədən, bu ölkədə yaşamadan müxtəlif siyahılar hazırlayır. İndi də hansısa 204 nəfərlik siyahı hazırlayıb və bunu müxtəlif qruplara bölüb. Bu siyahının böyük əksəriyyəti heç bir həqiqətə və faktlara söykənmir. Çünki Azərbaycanda fəaliyyət göstərən hüquq-müdafiə təşkilatlarının monitorinq qrupu hər müraciət əsasında müəyyən araşdırmalar aparır.

Ümumiyyətlə, siyasi məhbus anlayışını gündəlikdən çıxartmaq lazımdır. Söhbət məhkəmə və istintaq zamanı buraxılmış prossesual pozuntulardan gedə bilər. Bu prossesual pozuntular nəticəsində insanların həbs edilməsi, cəzalandırılması, onlara cəza təyin edilməsi məsələləri ola bilər və bu da təbii ki, ölkə daxilində həll edilməli məsələlərdir. Leyla Yunus, sadəcə, xaricdə oturub əsassız siyahılar hazırlamaqla qrantlar alıb, bununla yaşayışını təmin etməyə çalışır. Məlum olduğu kimi, həyat yoldaşı ilə xaricdə yaşayır, dolanışıqları üçün müəyyən xətlər, kanallar lazımdır. Bu kanallardan biri Azərbaycan üzrə saxta siyahılar hazırlamaq və xaricdəki "day-dayıları"ndan müəyyən vəsait almaqdır. Hesab edirəm ki, Azərbaycanda kifayət qədər ciddi və obyektiv hüquq müdafiəçiləri var və onlar hər bir müraciət üzrə araşdırmalar, hökumətlə danışıqlar aparırlar, buraxılan prosessual hüquq normalarının bərpası üçün müəyyən işlər görürlər. Leyla Yunus və onun kimilərinin siyahıları yalnız və yalnız xaricdə qrant almaq məqsədi daşıyır".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** da qeyd edib ki, məhkəmələrdə islahatlara, dəyişikliklərə ehtiyac var: "Mütləq şəkildə məhkəmələrimizdə dəyişikliklər olmalıdır. Müşahidələrimizə əsasən deyə bilərəm ki, məhkəmələrimiz sona qədər qanuna tabe olmurlar. Bəzi hakimlər öz şəxsi fikri və yaxud kimlərinsə sifarişi ilə qərar qəbul edir, insanların hüquqlarını pozurlar. Bu cür fəaliyyət göstərən məhkəmələr dövlətə qarşı işləyir. Avropa İnsan Haqları Məhkəməsinin Azərbaycana qarşı 551 min avro təzminat haqda qərar qəbul etməsinə gəldikdə, mən, ümumiyyətlə, Qərb demokratiyasına inanmıram. Avropanın 30 il ərzində Azərbaycana qarşı ikili standartlar irəli sürməsi, müsəlman ölkələrinə qərəzi, xristian Ukraynaya yanaşması və sairə, bütün bunlar hər kəsə məlumdur. Ona görə də Qərbin demokratiyası şəxsən mənim üçün nümunə deyil.

O ki qaldı Leyla Yunusun yeni siyahısına, hüquq müdafiəçiləri olaraq Avropa Şurası, bütün beynəlxalq təşkilatlar, insan haqları ilə məşğul olan komitələrə çağırışlar edirik ki, gəlsinlər Azərbaycana, hüquq müdafiəçiləri yığsınlar və görsünlər ki, hansı siyahı ilə çıxış edirik. Yəni məsələləri yerində araşdırsınlar. Mən niyə İrandan gəlib ölkəmdə terrorla məşğul olan insanı mən həbs etməyim? Bu olan şeydir?

Leyla Yunus onsuz da hər zaman kənarda oturub Azərbaycan, onun dövlətçiliyinə qarşı fəaliyyət göstərir. Onun Vətən müharibəsində qazandığımız qələbəmizə qarşı nümayiş etdirdiyi ikrah, kinayəli yanaşması hər kəsə məlumdur.

Beləliklə, bir daha qeyd edirəm ki, bütün hüquq komitələrini Azərbaycana dəvət edirik, gəlsinlər görsünlər ki, nə qədər siyasi məhbus var..."

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Sülhməramlıların yerinə türkdilli dövlətlərin polis birlikləri - yeni gəlişmə

## Sabiq xarici işlər nazirinə görə, Rusiya sülhməramlı missiyasını Türk Dövlətləri Təşkilatının üzvlərindən ibarət polis missiyası əvəz edə bilər-reaksiyalar

**Erməni separatçılarının lideri və Azərbaycanda hərbi cinayətkar elan edilən Araik Arutyunyanın yerli televiziyada kəskin anti-Azərbaycan nitqi Bakıda reaksiya doğurub.**



**Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarovun** bu mənada reaksiyası daha çox diqqət çəkib. O qeyd edib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri və İran Azərbaycana qarşı fəaliyyət göstərən amillərdir, çünki onlar münaqişəni regional idarəetmə vasitəsi kimi əbədiləşdirməyə çalışırlar.

"Azərbaycan Ermənistanın münaqişəni davam etdirmək istəyinə cavab olaraq "güzgü əks etdirmə" strategiyasını tətbiq edir. Bakı "Qərbi Zəngəzur və Göyçə mahalı", eləcə də "Qərbi Azərbaycan İcmaları" kimi məsələləri qaldırır və 1975-ci il xətti ilə müəyyən edilmiş sərhədləri tanımaqdan imtina etdiyini bildirir. Azərbaycan iddia edir ki, o, 1920-ci ilin payızına qədər qurulmuş xətt üzərində israr edəcək və siyasi və müdafiə üstünlüyünü nəzərə alaraq münaqişə zonasını Qərbi Zəngəzur ərazisinə və onun hüdudlarından kənara genişləndirməyə hazırdır. Azərbaycan Şərqi Zəngəzurun reinteqrasiya prosesinin xarici müdaxilə olmadan öhdəsindən gəlmək niyyətindədir", - deyə sabiq nazir bildirib. Əgər Rusiya bu prosesə qarşı çıxsa, Tofiq Zülfüqarova görə, Rusiya sülhməramlı missiyasını 2025-ci ilə qədər Türk Dövlətləri Təşkilatının üzvlərindən ibarət polis missiyası ilə əvəz etmək planı hazırlana bilər.

Qeyd edək ki, türkdilli dövlətlərin ayrıca hərbi birliyinin- "Türk NATO-su"nun yaradılması ideyası vaxtaşırı gündəmə gətirilir. Bildirilir ki, türk ölkələrinin siyasi, iqtisadi əməkdaşlıqla yanaşı, hərbi təhlükələrə qarşı bir təşkilat altında birləşməsi artıq dövrün tələbinə çevrilir.

*Məlumat üçün bildirək ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) üzvü olan dövlətlərdən biri - Türkiyə NATO-da, Qazaxıstan isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) təmsil olunur. Bununla belə, türkdilli dövlətləri qarşılıqlı anlaşma, dünyada sülhün və təhlükəsizliyin bərqərar olunması fonunda NATO kimi hərbi birlik və ya polis birlikləri yarada bilərmi?*

**Mövzu ilə bağlı Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı sabiq hərbi atteşesi, briqada generalı Yücel Karauz** "Yeni Müsavat"a danışıb:

"Türk Dövlətləri Təşkilatının "yol xəritəsi" 2009-cu ilin 3 oktyabrında Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış sazişi ilə ortaya çıxmışdı. 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanmış bəyannamə ölkələr arasındakı münasibətlərin strateji müttəfiqlik və qardaşlıq səviyyəsinə yüksəldilməsinə, digər Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin meydana gələn 30 illik təcrübələr, gəlişmələr və dünyanın gələcəkdəki alacağı şəkil çərçivəsində yenidən düşünmə, dəyərləndirmə, bu qardaşlıq təməlindəki iş birliyinə yeni bir ad qoymağa yönəlmişdir. Bu məqsədlə də 2021-ci il oktyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirildi. Bu görüşün önəmi həm də ondan ibarət idi ki, Türkmənistan və Macarıstan da müşahidəçi qismində qoşulmuşdu və sonda 121 maddəlik bəyannamə imzalanmışdı. Bu bəyannamə 5 əsas ana başlığı əhatə edir: siyasi mövzular; xarici siyasət və təhlükəsizlik məsələləri üzrə əməkdaşlıq; iqtisadi və sektorlar üzrə əməkdaşlıq; beynəlxalq əməkdaşlıq; Türk dünyasında institusional əməkdaşlıq və təşkilati məsələlər. Təkcə xarici siyasət və təhlükəsizlik məsələləri üzrə əməkdaşlıq, iqtisadi və sektorlar üzrə əməkdaşlıq 21 maddədən ibarətdir. Bu say Türk Dövlətləri Təşkilatının 2009-cu ildən etibarən nə qədər ciddi işləri həyata keçirdiyinin göstəricisidir.

Əlbəttə ki, Türk Dövlətləri Təşkilatı iqtisadi, siyasi, mədəni sahədə əməkdaşlığı təhlükəsizlik sektoruna da daşımaq məcburiyyətindədir. Çünki 3-4 il, bəlkə də daha tez bir zamanda dünyada yeni münaqişələr, üçüncü dünya savaşı baş verə bilər. Məsələn, dünya Orta Asiyada, Afrikada, Çin-Tayvan, Əfqanıstan bölgəsində birdən çox savaşla üz-üzə qala bilər. Bu səbəbdən Türk Dövlətləri Təşkilatı təhlükəsizlik məsələsini hazırlıq hala gətirməli, meydana gələ biləcək gəlişmələrə qarşı öncəliklə sülh məqsədli birliklər yaratmalı, yetişdirməli və ondan istifadə etməlidir. Buna hazır olmadığımız təqdirdə çox gec ola bilər. Xatırladım ki, Türk Dövlətləri Təşkilatının bölgəsi ilə bağlı 3 təhlükəsizlik problemi mövcuddur. Bunlar Qarabağ, Kipr, Əfqanıstan problemidir. Təbii ki, hazırda bu üç problem arasında Qarabağ problemi birincidir.

Təbii ki, Türk Dövlətləri Təşkilatı 2 il sonra missiyası sona yetəcək Rusiya sülhməramlılarının yerinə tərəfsiz bir şəkildə fəaliyyət göstərə bilir. Amma şəxsi dəyərləndirmən bundan ibarətdir ki, Türk Dövlətləri Təşkilatının Qafqazlarda meydana gələ biləcək münaqişələri önləmək üçün sülh gücündən istifadə etməsinə nə Rusiya, nə Avropa, Amerika imkan verməyəcək. Çünki türk dünyasının artan gücü, artan iqtisadi-siyasi, mədəni əməkdaşlığı hər tərəfi, hətta Hindistanı və Çini belə rahatsız etməkdədir. Beləliklə, bu, çox məşəqqətli və çətin yoldur, amma olmazsa olmazdır.

Bu baxımdan bir daha qeyd edirəm ki, həmin günə indidən hazırlaşmaq lazımdır. Dəyişən dünyada atəşin harada və necə alacağı bilinməyən bir zamanda Türk Dövlətləri Təşkilatı öncə özü və yaxın çevrəsi ilə bağlı fəaliyyət göstərəcək əsgər birlikləri NATO və yaxud bu kimi təşkilat yaratmalıdır. Türk Dövlətləri Təşkilatının ortaq sülh gücü yaratması həm bu bölgə, eyni zamanda ölkələr, dünya üçün də çox önəmli məsələdir".

**Hərbi analitik Alp Arslan İmamqulu** mövzuya bu cür rəy bildirdi: "Hazırda yeni yüz ilin başlanğıcındayıq. Deyərdim ki, bu başlanğıc türk əsiri adlandırılacaq. Azərbaycan və Türkiyə arasındakı münasibətlər, Şuşa Bəyannaməsi, Türk Dövlətləri Təşkilatı və ona üzv dövlətlərin bir araya gələ bilməsi, bütün bunlar gələcəkdə mütləq Turan ordusunun qurulmasına istiqamətlənən addımlardır. Bu, artıq bir zərurətdir.

Son 300 ildə baş verən hadisələr onu göstərdi ki, təkbaşına bir dövlət olaraq fərdi qaydada düşmənlər qarşısında nəticə əldə etmək qeyri-mümkünə bərabərdir. Bununla bağlı bir çox nümunələr var. Türk dünyasının Osmanlı və Səfəvi kimi dövlətlərin tarixdən silindikdən sonra Qərbin atdığı addımların çox dəqiqliklə izləmək və bir çox hallarda nümunə götürmək lazımdır. Qərbin ortaya gətirdiyi NATO, bundan başqa, Avropa Birliyi, Avropa İttifaqı çox gözəl nümunələrdir və biz də gələcəkdə təkcə hərbi deyil, həm də iqtisadi olaraq, sanki aradan heç bir sərhəd yoxmuş kimi ortaq akademiyalar, universitetlər, hərbi müəssisələr, istehsalat müəssisələri yaratmaq, ən önəmlisi, ortaq ordunun qurulması artıq bir zərurətdir.

Vaxtaşırı olaraq Azərbaycan və Türkiyə arasında ortaq təlimlərin keçirilməsi və eyni zamanda Azərbaycan və Özbəkistan, Qazaxıstan arasında atılmış addımlar onu deməyə əsas verir ki, gələcəkdə NATO kimi təşkilatın qurulmasına çox az bir zaman qalıb. Bu gün bu təşkilatın qurulması üçün Türkiyənin və yaxud digər qardaş türk dövlətlərin hansısa təşkilata üzv olması heç bir əngəl yaratmır.

Artıq bunun zamanıdır, əks halda gec qalmış olarıq".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



# Əsir oğlu ilə 4 ay sonra danışdı

## "Dedi ki, sən oğlunu tanımırsan?!"

**"Nəhayət, 4 aydan sonra mən də balamı gördüm, onunla danışa bildim. Zəifləyib, amma hər şey əvvəlkinə nisbətən indi yaxşıdır. Əvvəlki yaraları sağalıb".**

Bu sözləri cebhe.info-ya açıqlamasında Ermənistanda əsir saxlanılan Azərbaycan Ordusunun əsgəri Hüseyn Axundovun anası Şəlalə Axundova deyib. Əsir hərbçinin anası oğlundan zəng gələndə xəstəxanada olduğunu bildirib: "Mən neçə gündür xəstəxanada yatıram, elə ancaq mənə dedi ki, ağlama. Bax, görürsən, mən gülürəm, sən də gül. Heç gör mən ağlayıram? Hər şey yaxşı olacaq. Sən oğlunu tanımırsan?! Mən dözümlüyəm, sən özünə yaxşı bax ki, mənim işlərimi görə biləsən".

Bir neçə aydır oğlunun səsini eşitməyən, üzünü görməyən ana övladının gözlərindəki qorxunu hiss etdiyini vurğulayıb: "Az danışdıq, ürəyim dolu idi. Hamı mənə dedi ki, bir az sakit dur, o da danışsın. Heç uşağa imkan vermədim, çaşdım. Mən ona körpəlikdən "aşkım", "həyatım" demişəm, evin sonbeşiyidir. Gözlərindəki qorxu hissini gördüm, onlara baxa-baxa danışan uşaq necə olar? Hər addımı izlənilir, gözü onlarda qalıb, yanında tərcüməçi var. Dedi ki, tərcüməçi tez-tez yanıma gəlir, mənimlə maraqlanır, siqaretimi, yeməyimi-içməyimi verirlər. Bildim ki, elə deməlidir. Düşman əlində olan uşaq nə deməlidir ki?!"

Qeyd edək ki, ötən gün Ermənistanda əsir saxlanılan Azərbaycan Ordusunun əsgəri Hüseyn Axundov ailəsi ilə əlaqə saxlayıb.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb.

Aqşin Bəbirov və Hüseyn Axundov "Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunaraq həbs ediliblər. Qondarma məhkəmə prosesində Aqşin Bəbirova 11,5 il, Hüseyn Axundova isə 20 il müddətinə həbs cəzası verilib.

# Naxçıvan Ali Məclisinin 8 aydır boş qalan sədr kürsüsü-səbəb nə...

## Deputat bunu mümkün konstitusiya dəyişikliklərinin ola biləcəyi ilə izah edir




**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin son toplantısında komitələrinin sədrləri, sədr müavinləri və üzvləri məlum olsa da, sessiyada sədr seçkisi keçirilməyib. Yada salaq ki, ötən il dekabrın 21-də Ali Məclisinin sədri Vasif Talıbov istefa verib. O, 1995-ci ilin dekabrından, son 27 ildə Naxçıvan Ali Məclisinin sədri idi.**

Dekabrın 22-də isə Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edib.

Prezident İlham Əliyev V.Talıbovun istefasından sonra "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə fərman imzalayıb ki, bununla da Ali Məclis sədrinin bəzi səlahiyyətləri alınıb. May ayında isə Ali Məclisin onuncu sessiyasında Qıvraq seçki dairəsindən deputat Anar İbrahimov Ali Məclis sədrinin müavini seçilib.

Anar İbrahimov Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibidir.

Naxçıvan MR Konstitusiyasının 30-cu maddəsinə əsasən, Ali Məclisin sədri istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini itirdikdə müəyyən edilmiş müddətdə yeni sədr seçilənə qədər onun səlahiyyətlərinin icrası Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini, o da olmadıqda müavini tərəfindən yerinə yetirilir.

Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalovdur. O, 2020-ci ildən bu vəzifədə çalışır.

*İqtidar Naxçıvan Ali Məclisinə sədr seçilməsini niyə təxirə salır? Səbəb nə ola bilər?*

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa** konstitusiya dəyişikliklərinin ola biləcəyinə daha çox eyham vurdu: "Bu mövzuda nəsə söyləməkdə bir qədər çətinlik çəkirəm. Çünki hamıda belə bir təsəvvür var ki, yeni sədr seçiləcək. Amma görünür ki, kimin sədr olması hələlik müəyyənləşməyib, yaxud da bu istiqamətdə hər hansı bir addımın atılması üçün konstitusiyada dəyişiklik olmalıdır. İndi ora yeni bir institut tətbiq olunub, yəni xüsusi nümayəndə göndərilib. İndi sədrin qanunvericilikdə bölgüsünü aparmaq lazımdır. Çox güman ki, əgər konstitusiya dəyişikliyi olacaqsa, bu, referendum vasitəsilə olacaq. Məsələ bir qədər aydınlığa o zaman qovuşacaq. Yəqin ki, referendumdan əvvəl bunu etməyə tələsmirlər. Amma faktiki olaraq Naxçıvanda əsas səlahiyyət konstitusiyaya görə sədrə aiddir. Belə bir vəziyyətdə muxtar respublikanın əslində funksional fəaliyyətinə ciddi təsir edən amil sayıla bilər. Yəni kim olacaqsa, bu postun səlahiyyətlərindən istifadə edəcəksə, daha çox muxtar respublikanın problemləri istiqamətində addımlar ata bilər. Bu boşluq müəyyən dərəcədə idarəçiliyə də öz təsirini göstərə bilər. Hər halda görünür ki, konstitusiya dəyişikliyindən sonra bu məsələyə baxıla bilər. Səlahiyyətlərdə dəqiqləşmə olandan sonra ola bilsin ki, Ali Məclis formasında hansısa bir idarəetmə-qanunvericilik orqanı nəzərdə tutulmasın. Çünki Prezidentin səlahiyyətli nümayəndəsi varsa, əlavə bir bürokratik mexanizmi genişləndirməyin hansı mənası olacaq? Bunun da üzərində düşünmək lazımdır. Gedişatda, yəqin ki, bu məsələyə bir daha baxılacaq. Amma, hələ ki, bu boşluq müəyyən dərəcədə idarəetmədə də boşluqların yaranmasına gətirib çıxara bilər".




**AMİP Mərkəzi Şurasının sədri Rəşad Bayramov** Vasif Talıbovun dövründəki avtoritar idarəçiliyi bir daha önə çəkdi: "Ötən ilin dekabrından, yəni Vasif Talıbovun istefasından keçən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bir neçə iclası keçirilsə də, bu iclaslarda sədr seçkiləri keçirilməyib. Sədr seçkilərinin keçirilməməsi bununla bağlı siyasi qərarın olmaması ilə bağlıdır. Bu isə bir neçə səbəbdən ola bilər. Düşünürəm ki, vacib səbəblərdən biri uyğun kadrın olmaması ilə bağlıdır. Vasif Talıbovun uzun illər avtoritar idarəçiliyi ona muxtar respublika Ali Məclisini öz bildiyi kimi formalaşdırmaq imkanı vermişdi. Heç kimə sirr deyil ki, onun icazəsi olmadan hər hansı bir təsadüfi şəxsin Naxçıvanda nəinki Ali Məclisə seçilməsi, heç adının seçki bülleteninə düşməsi belə mümkün deyildi. Yəni başqa sözlə desək, Talıbovun formalaşdırdığı Ali Məclisdən onu əvəz edəcək birinin tapılması təbii olaraq asan məsələ və ya siyasi hakimiyyət üçün arzuolunan hal deyil. Digər səbəb iddialı namizədin olmaması ilə bağlıdır. İndi Naxçıvan Ali Məclisində heç kəs belə bir iddia ilə çıxış edərək özünü irəli atmaq istəmir. Çünki Ali Məclis məhz elə hər hansı bir iddiası olmayan şəxslərdən ibarət formalaşıb. Anar İbrahimovun Naxçıvan Ali Məclis sədrinin müavini vəzifəsinə seçilməsinə gəldikdə isə deyim ki, bu, ən düzgün qərar idi. Bir Naxçıvanlı olaraq və insanların Anar İbrahimova münasibətini bilən biri kimi deməliyəm ki, onun həm şəxsi keyfiyyətləri, həm də təcrübəsi bu vəzifəni tutmağa tamamilə imkan verir. Və əgər gələcəkdə Ali Məclisin sədriylə bağlı siyasi qərar məhz onunla bağlı olarsa, buna heç kim təəccüblənməz və qeyri-adi qəbul etməz.

Amma məsələ burasındadır ki, bugünkü Naxçıvan Ali Məclisi ilə Vasif Talıbovun sədrliyindəki Ali Məclis arasında böyük fərq mövcuddur. Bu fərq əsasən səlahiyyətlərlə bağlı olan fərqdir. Yəni əvvəllər Naxçıvan Ali Məclisinin sədri Naxçıvanda mütləq hakim idi. İndi isə Prezidentin təyin etdiyi səlahiyyətli nümayəndə, yəni Fuad Nəcəfli var. Başqa sözlə desək, indi Ali Məclis formal bir quruma çevrilib və formal səlahiyyətləri həyata keçirir. Odur ki, Məclis sədri ilə bağlı siyasi qərarın olmaması həm də bununla bağlıdır. Yəni onsuz da formal funksiyaları həyata keçirən bir quruma sədr seçmək üçün tələsməyə elə bir ciddi ehtiyac olmadığı üçün müvafiq seçkilər də keçirilmir".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Yeni rəhbər Naxçıvanda nələri dəyişib?

## **Elxan Şükürlü:** "Əvvəlki imtiyazlı mövqelərini itirmiş şəxslər Bakıda nə qədər gözdən salmağa çalışsalar da..."



**"Naxçıvan Muxtar Respublikasındakı kadr dəyişikliklərini vəzifəsindən uzaqlaşdırılmış şəxslərin ətrafı, əvvəlki imtiyazlı mövqelərini itirmiş şəxslər paytaxt Bakıda nə qədər gözdən salmağa və keçmişdəkilərə rəğbət oyatmağa çalışsalar da, yerli əhalinin əksəriyyəti bunu təqdirlə qarşılayır və gələcəyə böyük ümidlə yanaşır".**

Demokrat.az xəbər verir ki, bu sözləri **siyasi şərhçi Elxan Şükürlü** deyib. Onun sözlərinə görə, indiyədək Naxçıvan camaatını ən çox sıxan və kütləvi köçə səbəb olan əsas problemlərdən biri əhalinin yersiz qorxu və vahimə rejimi altında saxlanması idi:"Artıq ilk olaraq bu mühit aradan qaldırılıb. İnsanların yeni rəhbərlikdən əsas gözləntisi isə yeni iş yerlərinin açılması, muxtar respublika əhalisinin gəlirlərini artıracaq təsərrüfat, istehsal və ticarət sahələrinin canlandırılması və geriyədönüşün təmin edilməsidir. Hazırda Naxçıvandakı dəyişikliklərin faydasını ən çox görən kəndlərdən biri isə elə bizim gözəl Kolanımızdır. Uzun müddət rayon və MR rəhbərliyinin qərəzli və aşağılayıcı münasibətinə məruz qalmış kəndimizdə hazırda böyük abadlıq işləri görülür: kəndin əsas hissəsinin Laçın - Gorus - Qarakilsə - Şahbuz - Naxçıvan magistralına çıxışını qapadan və böyük narazılıq yaradan daş hasarlara artıq qapı yerləri açılıb, ilk dəfə kəndarası bütün yollar asfalt örtüklə təmin edilib, qaz və elektrik xətləri yenilənib, kəndin qəbiristanlığı isə daha etibarlı şəkildə dəmir çəpərə alınıb. Kənd camaatının ən böyük arzularından biri isə, "Quzey" adlandırdığımız böyük bir əraziyə də yol çəkilməsidir. Çünki bu əraziyə avtomobil yolu çəkilərsə, Kolanı kəndinin təsərrüfat həyatı, demək olar ki, tamamilə dəyişərək yenidən inkişaf mərhələsinə qədəm qoyacaq.

Bizim kənd camaatının əsas məşğuliyyəti heyvandarlıq və arıçılıqdır. Ancaq otlaq, sututan ərazilərin azlığı və nəqliyyat üçün əlverişli olmayan yerlərdə yerləşməsi ilboyu istifadə edilə biləcək minlərlə hektar təsərrüfata yararlı otlaq və əkin sahələrini səmərəsiz, əlçatmaz hala gətirib.

Sovetlər dağılan ərəfədə "Quzey"ə kəndimizdən yol çəkilməsi təşəbbüsləri olsa da, iş yarımçıq saxlanıldı. Sonradan Naxçıvandan əhalinin köçünün başlaması və kəndimizin də təsərrüfat həyatının xeyli geriləməsi bu yolun çəkilişinə marağı azaltdı.

Hazırda isə həmkəndlimiz Fuad Nəcəflinin Prezidentin Naxçıvandakı xüsusi nümayəndəsi təyin edilməsindən və onun da böyük həvəs, məsuliyyət hissiylə işə başlamasından sonra Kolanı camaatında böyük ümid yaranıb ki, öz ata-babalarının tarixi təsərrüfat yerlərinə - "Quzey" və "Keçəldağ" ərazilərinə avtomobil yollarının çəkilişinə daha kimsə maneçilik törədə bilməyəcək.

Ümid edirik ki, yaxın gələcəkdə həm bu yolların çəkilməsi, həm də bütövlükdə Naxçıvanın su təchizatının yaxşılaşdırılması, təbii sututarların, anbarların yaradılması üçün yerli şəraiti yaxşı bilən mütəxəssislərin iştirakıyla yeni layihələr hazırlanaraq, ölkə rəhbərliyinə təqdim ediləcək".

Qeyd edək ki, Prezident İlham Əliyev Fuad Nəcəflini ötən il dekabrın 22-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin edib.

YENİ MÜSAVAT
N 137 (8273) 9 avqust 2023

# Separatçı rejimin “rəhbərləri” əfv edilə bilməz

## Fazil Mustafa: “Tərəzinin bir gözündə törədilən cinayətlər, digər gözündə isə...”

## Çingiz Qənizadə: “Etnik ermənilər arasında çox sayda ağır cinayətlər törətmiş şəxs var”

**Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarından birində Qarabağda yaşayan erməni icmasının müəyyən üzvlərinə amnistiya aktının tətbiq oluna biləcəyi haqqında açıqlama vermişdi. Qarabağda yaşayan bir neçə erməni lider İlham Əliyevin xoş məramından yararlanaraq Birinci və İkinci Qarabağ müharibəsində iştirak edən bütün ermənilərin amnistiyaya düşməsinə nail olmağa çalışır. Qondarma qurumun “ordusunun keçmiş komandanı” Samvel Babayan Azərbaycan Respublikasının qanunu ilə təqib olunan və müharibədə Azərbaycana qarşı cinayət törədən 300 erməninin amnistiyasına nail olmağı təklif edib. O bunu Vaqif Xaçatryanın nümunəsi əsasında söyləyib. Bəs Araik Arutyunyan, Samvel Babayan, Vitali Balasanyan və digər müharibə cinayətlərində iştirak etmiş liderlər amnistiyaya düşə bilərmi?**

**Azərbaycan Hərbi Prokurorluğundan** “Yeni Müsavat”a bildirilib ki, erməni hərbi cinayətkarların beynəlxalq axtarışları davam edir. Eyni zamanda Azərbaycan ərazilərində yaşayan, vaxtilə Qarabağda azərbaycanlılara qarşı cinayət törətmiş hərbi canilərlə bağlı da əməliyyat-istintaq tədbirləri davam edir. Həmin cinayət işləri üzrə icraatın təzələnməsi üçün əsaslar yarandığı zaman bu addım da atılacaq. Azərbaycanlılara qarşı cinayət törədən heç bir hərbi cani milliyyətindən asılı olmayaraq törətdiyi hərbi cinayətlərə görə cəzasız qalmayacaq.

**Deputat Fazil Mustafa** “Yeni Müsavat” bildirdi ki, danışıqlar prosesində bu məsələ də müzakirə oluna bilər. Onun fikrincə, terrorda iştirak etməmiş şəxslərin amnistiyası haqqında düşünmək olar: “Qarabağda yaşayan əhali itaətsizliyə, dövlət qanunlarını tanımamağa görə onsuz da məsuliyyət daşıyır və cinayətkar kimi onlara qarşı hər hansı addımın atılması istisna edilmir. Azərbaycanın reinteqrasiya prosesini necə aparması və ermənilərin cavabı çox önəmlidir. Amnistiyanın tətbiq edilməsi sonrakı mərhələdə gündəmə gələ bilər. Ermənilər hər şeyi yenidən başlamağa razı olanda, Azərbaycan qanunlarına tabe olduqlarını bəyan etməyə hazır olanda amnistiya elan oluna bilər. Məsələ müzakirəyə çıxarılanda tərəzinin bir gözündə törədilən cinayətlər, digər gözündə isə Azərbaycanın suverenliyinin bərpa olunması məsələsi duracaqsa, biz ağır gələn tərəfə diqqət edəcəyik. Azərbaycan ərazi bütövlüyünün bərpa olunması naminə müəyyən güzəştlərə gedə bilər. Güzəştə getməyəcəyimiz əsas məsələlər ərazi bütövlüyümüz, suverenliyimiz və ərazimizdə yaşayan bütün insanların Azərbaycan qanunlarına tabe olmasıdır”.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** mövzunu “Yeni Müsavat”a şərh edərkən qeyd etdi ki, Araik Arutyunyan, Samvel Babayan, Vitali Balasanyanın, proseslərin aktiv iştirakçısı olan, cinayətlər törədən, quldurluq edən Vaqif Xaçatryanın da amnistiyaya düşməsi mümkün deyil. O, söhbətin separatçı rejimin “parlament”, “hökumət” rəhbərlərindən getmədiyini vurğuladı: “Söhbət proseslərdə fəal olan, lakin buna məcbur edilən, yəni qəsdən insan öldürməyən, digər ağır cinayətlər törətməyən ermənilərdən gedir. Məlumdur ki, amnistiya aktı Milli Məclis tərəfindən qəbul edilir. Sonradan barələrində həbs qərarları çıxarılmış və qanuni qüvvəyə minmiş hökmlər olarsa, cənab Prezident istədiyi şəxsləri əfv edə bilər. Bu Prezidentə verilmiş müstəsna hüquqdur. Bütün hallarda həm Birinci, həm də İkinci Qarabağ müharibəsi zamanı müharibə cinayətləri törətmiş, Azərbaycan xalqına qarşı qırğın və soyğunçuluq edən, ərazilərimizin işğalında fəal iştirak etmiş, prosesə rəhbərlik etmiş şəxslər nə amnistiya aktının, nə də əfv sərəncamının təsir dairəsinə düşmürlər. Hazırda Qarabağda Rusiya sülhməramlılarının nəzarəti altında yaşayan etnik ermənilər arasında çox sayda ağır cinayətlər törətmiş şəxslər var ki, Azərbaycan Respublikası Baş Prokurorluğunun qərarı ilə axtarışa veriliblər. Onlar ələ keçirilən kimi mühakimə olunacaqlar. Gələcəkdə inteqrasiya prosesi baş tutarsa, həbs edilən şəxslərin əfv edilməsi hüququ yenə də Prezidentin səlahiyyətində olacaq”.



Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçın rayonuna səfəri zamanı Qarabağda yerləşən separatçı rejimin məmurları haqqında çıxış edərkən bildirdi ki, onların təslim olmaqdan başqa variantları yoxdur: “Hər kəs yaxşı bilir ki, bu gün o bölgədə (Qarabağ) istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə ”parlament" buraxılmalıdır, özünü “prezident” adlandıran ünsür təslim olmalıdır, bütün “nazirlər”, “deputatlar” və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər".

Prezident çıxışında həmçinin qeyd etdi ki, beynəlxalq təşkilatlar faktiki olaraq Azərbaycanın mövqeyi ilə (Qarabağla bağlı - red.) tamamilə razılaşıblar. **Sitat:** “Bunu mən müxtəlif görüşlər əsnasında artıq görürəm. Yəni nəyə görə razılaşıblar? Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq. Bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır. Bizə gələn son mesajlar belədir ki, bəs orada dırnaqarası rəhbərliyin aqibəti necə olacaq? Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır”.

Xatırladaq ki, ABŞ Dövlət Departamenti Kişinyovda Ermənistan və Azərbaycan arasında gözlənilən danışıqlar ərəfəsində bəyanatla çıxış edərək dinc səyləri dəstəkləməyə hazır olduğunu təsdiqləmişdi. Mətbuat katibi Metyu Miller bəyan etmişdi ki, ABŞ Ermənistanla Azərbaycan arasında danışıqların davam etdiyini görməkdən məmnundur: “Dövlət katibi Blinkenin dediyi kimi, Cənubi Qafqazda sülhə nail olmaq mümkündür. Bu yaxınlarda sülhə sadiq olduğuna görə baş nazir Paşinyana təşəkkürümüzü bildirir və amnistiya məsələsinə baxılması ilə bağlı Prezident Əliyevin son fikirlərini alqışlayırıq”.

Vaşinqtonun bu mövqeyi Ermənistanda bəzi siyasi dairələrin narazılığına səbəb olub. Erməni şərhçi Edik Andreasyan “Hraparak” nəşrindəki “Araiki təslim edin, rahat yaşayın” adlı məqaləsində qeyd edib ki, “İlham Əliyevin bütün açıqlamalarına ciddi yanaşmaq lazımdır, çünki adətən Azərbaycan Prezidentinin dedikləri gerçəkləşir. Araik Azərbaycan Daxili İşlər Nazirliyinin mikroavtobusuna əyləşəndə Əliyevlə Paşinyan sülh sazişi imzalayacaq. Əliyev böyük amnistiya elan edəcək və Qarabağdakı erməni əhalisi öz gündəlik həyatlarını yaşayacaqlar. Arutyunyanı bağışlamaq və ya bağışlamamaq qərarını Bakıda verəcəklər, bəlkə də bağışlayacaqlar”.

ABŞ-nin mövqeyinə erməni siyasilərlə yanaşı, qondarma rejimin xarici işlər nazirliyi də münasibət bildirib: “ABŞ Dövlət Departamentinin Azərbaycan Prezidentinin ”Artsax" sakinlərinin amnistiya məsələsinə baxmağa hazır olması ilə bağlı son bəyanatlarını alqışladığı haqda bəyanatı dərin məyusluq və çaşqınlıq yaradır".

❑ **Nigar HƏSƏNLİ, Musavat.com**



# Vaşinqtonda görüş gözlənilir?

**Dövlət Departamentinin rəsmisi bildirib ki, ABŞ Azərbaycanla Ermənistan arasında sülh razılaşması üçün işləri davam etdirəcək.**

Qeyd olunub ki, bu məsələnin tərəfi olmayan digər ölkələrin hər hansı şərhinə baxmayaraq, sülh razılaşması əldə edilə bilər və buna nail olmaq üçün tərəflərlə əlaqə davam etdiriləcək.

ABŞ rəsmisinin bu açıqlamasını demokrat.az üçün şərh edən **politoloq Tofiq Abbasovun** sözlərinə görə, Azərbaycanla Ermənistan arasında normallaşma prosesində iştirak edən hər üç tərəf - Moskva, Brüssel və Vaşinqton məsələni həlletmə missiyasını öz üzərinə çəkmək istəyir.

“Fikrimcə, Moskva və Brüssellə müqayisədə Vaşinqtonun mövqeyi bir qədər kövrəkdir. Ona görə yox ki, ABŞ coğrafi cəhətdən regiondan uzaqdır, xeyr. Söhbət ondan gedir ki, Amerika, sadəcə, özünəməxsus boşluğu doldurur. Artıq dünya gümdəmində bir çox vacib məsələlərlə bağlı vahid Qərb yoxdur. ABŞ və Avropa İttifaqı arasında soyuqluq, hadisələrə hərəsinin fərqli yanaşması var. Lakin Azərbaycan - Ermənistan məsələsində, demək olar ki, onların mövqeləri üst-üstə düşür. Onu da istisna etmirəm ki, Fransanın qərəzli yanaşmaları, Makronun oyunbazlığı bəlkə də Amerikanın ürəyincədir. Çünki regiona müdaxilə etmək üçün orada problemlər yaratmaq lazımdır”.

ABŞ-də yenidən xarici işlər nazirləri səviyyəsində görüş keçirilməsi ehtimalını istisna etməyən politoloq T.Abbasov əlavə edib ki, rəsmi Vaşinqtonun sülh yaratma prosesində konstruktiv payı işin xeyrinə ola bilər.

“Bir şərtlə ki, vasitəçi tərəflər rəqabət prinsipinə girişərək Azərbaycanın, eləcə də Ermənistanın maraqlarını kölgədə qoymasınlar. Bədnam Minsk Qrupunun fəaliyyəti ərzində biz bu təcrübəni yaşadıq. ABŞ gərək sağlam mövqedən çıxış etsin. Əgər Rusiya tərəfinin də prosesə müsbət təsiri olacaqsa, buna mane olmasın. ABŞ digər tərəflər deyəndə, şübhəsiz ki, rəsmi Moskvanı nəzərdə tutur. Gizli deyil ki, ABŞ Rusiyanın bölgədə təsir gücünü, nüfuzunu zəiflətməyə çalışır. Rusiyanın sülhyaratma prosesində destruktiv mövqe sərgilədiyi də məlumdur, çalışır ki, münaqişə həllini tapmasın. Buna baxmayaraq, rus diplomatiyası ən yaxın zamanda sağlam bir mövqe ortaya qoyarsa, Vaşinqton buna əngəl olmamalıdır”.



# Hamısı xalqa qalacaq

Zamin HACI
zaminhaci@gmail.com

**1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hökuməti qurulandan sonra varlı insanların əmlakını tutub əllərindən aldılar. Hansısa kənddə bəyin evi dönüb oldu məktəb. Şəhərdə neft milyonçusunun saray-imarətini universitet binası elədilər. Varlı burjuaziyanın mülkləri xəstəxana, muzey, yetimlər evi və sairə təyinatla da işlədildi.**

Sevindirici haldır ki, hazırda dövlətimizin humanitar siyasəti həmin tarixi bünövrə üzərində qurulmaqdadır. İcra hakimi korrupsiyada suçlanıb tutulursa, onun evini sosial məqsədlər üçün ayırırıq. Məsələn, Neftçalanın keçmiş icra başçısının villasında indi "Qızıl balıq muzeyi" yerləşir. Keçmiş MTN-in keçmiş generalı Akif müəllimin Bakıdakı imarəti "Aqil Xəlil adına Jurnalistlər Evi"nə çevrilmişdir. Beynəlxalq Bankın keçmiş şefi Cahangir müəllimin xanımı Zamirə Hacıyevanın Londonda univermaqda xərclədiyi 1 milyon yarım funt-sterlinq ölkəmizin xaricdə təbliğatında mühüm rol oynamışdır.

Belə şeylər çoxdur. Say ki, sayasan. Tükənmək bilmir. Neft-qaz tükənəcək, bunlar yox.

Ona görə uca millətimiz tikinti-quruculuq işlərinə müsbət yanaşır. Hamı televiziyalara intervü verəndə istər-istəməz vurğulayır: "Qoy tiksinlər, yaratsınlar, onsuz axırda hamısı xalqa - bizə qalacaqdır".

Bizə qalan sərvətlər siyahısında son günlər aktuallaşan bir maddə vardır, istərdim onu da sizlərlə bölüşüm. Bu, avtomobillər, nəqliyyat vasitələridir.

Görürsən birdən hökumət hərrac elan etdi, orda avtomobil satışa qoyuldu. Hansısa "Ləndrover", "Cip", canım sənə desin, "Nissan"-"Missan"... Bunun özü hökumətin xalqa böyük lütfüdür. Çünki hərrac, auksion haqda məlumatları oxuyanda açıq görürsən ki, həmin bu maşın, məsəl üçün, dünənəcən filan nazirliyin maşını olmuşdur. Nazirliyin ismi-şərifini oxuyanda adamı qorxudan tər basır, mən heç indi o nazirliyin adını yaza bilmirəm, lakin sənə onun maşını təklif edilir! Fantastikadır. Əsl idarəetmədir. Demokratiyadır. Bəlkə də nazir özü həmin maşını sürüb, hər gün səhərlər şeh damcıları otlar üstünə qonanda xalqa xidmət üçün iş yerinə tələsmişdir. İndi isə oturduğun yerdə bu maşını əldə etmək imkanın var. Halbuki xarici kapitalist ölkələrdə belə maşınlar nadir hallarda tapılır. Məşhur adamın əmlakı asan iş deyil...

Bu günlərdə hərracda Azərbaycan Respublikası "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə məxsus traktor gördüm. Təsəvvür elə. Dövlət nəinki minik avtomobilləri, hətta traktorları da bizə təklif edir. Minnətdarlıq duyğusundan ağladım. Elanda traktorun xüsusiyyətləri göstərilmişdi: "Təkərli traktor Başak-2073, buraxılış ili 2006, start qiyməti manatla 1000, traktor uzun müddət istismar olunmuş, fiziki cəhətdən köhnəlmiş, nəticədə yenidən bərpası mümkün deyil. Yararsız vəziyyətdə olan hissələr, mexanizmlər və detallar: mühərrik, arxa körpü, starter, yüksək təzyiqli yanacaq nasosu, faralar, əyləc sistemi, kollektor, generator, ban, cihazlar". Traktorun fotosu verilmişdi, təkərləri də partlamışdı. Ancaq xalqa təklif edilir! Əsas olan bu deyilmi?

Yaxud Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsi "CHEVROLET EPICA" avtomobili satır. 2007-ci ilin maşınıdır. Start qiyməti 6000 manatdır. Nəqliyyat vasitəsinin mühərriki qeyri-müntəzəm işləyir. Normadan artıq yağ işlədir, tüstüləyir. Əyləc qəlbləri (belə də yazmışdılar - əlbəttə, qəlib xaricdə olur, bizim idarələrin maşını qəlblə tormozlanır - Z.H.) yararsızdır. Akkumulyator batareyası yararsızdır. Avtomobilin kuzovunda və qapılarında əzilmiş, deformasiya olunmuş hissələr var. Təkrar hərraca çıxır.

5 sentyabrda bunu gedib alın. Çünki böyük ehtimal hələ Artur müəllim bununla işə gəlib-getmişdir. Tarixi maşındır.

Sözgəlişi, bəzi maşınlar 5-10 dəfə hərraca çıxır, qiyməti azaldılır, ancaq alan olmur. Bu da xalqımızın öz tarixinə laqeyd və biganəliyinin göstəricisidir. Gəlin belə olmayaq. Belə olmaqdansa, elə olmaq - ellə olmaq yaxşıdır.



# Qarabağdakı gərginlikdə Soros izi - Paşinyanın "dayı"sı pulları kimə xərcləyir?

## Ermənistanda BMT bayrağı altında beynəlxalq sülhməramlı missiyanın bölgəyə yerləşməsi üçün yeni kampaniya başlanıb, Qərbdən qrant alan QHT-lər fəallaşıblar; deputat: "Əgər ermənilərin orada həyatına təhlükə olsaydı, BMT tədbir görə bilərdi, amma..."

**Xankəndi və Laçın yolu ətrafında baş verənlərdə Soros Fondunun da aktiv iştirakı haqda məlumat üzə çıxıb. Ermənistan mediası yazır ki, Soros Fondu aktiv olaraq anti-Azərbaycan təbliğatı aparmaqla yanaşı, Rusiya sülhməramlılarını Qarabağda beynəlxalq sülhyaratma missiyası ilə əvəzlənməsi ilə bağlı kampaniyanı maliyyələşdirir. Kampaniyanın əsas iştirakçıları arasında "Back to Dizak" (Dizağa qayıdış) və "Hanunu Hadrut" (Hadrut naminə) QHT-ləri də var. "Back to Dizak"ın rəhbəri Marqarita Karamyan və "Hanunu Hadrut"un rəhbəri Levon Hayriyan Ermənistanın baş naziri Nikol Paşinyanı beynəlxalq sülhməramlıların Qarabağa göndərilməsi tələbi ilə BMT Təhlükəsizlik Şurasında çıxış etməyə çağırıb. Onlar baş verənlərə görə Rusiya sülhməramlılarını günahlandırır və onların əvəzlənməsini tələb edir.**

Ermənistan mediası yazır ki, "Back to Dizak" təşkilatı Qarabağdakı ermənilərin "hüquqlarının qorunması" adı altında Soros Fondundan 25 min dollar alıb. "Hanunu Hadrut" təşkilatının rəhbəri, Qarabağdakı separatçı "parlamentin" keçmiş qondarma "deputatı" Levon Hayriyan isə ABŞ-nin Ermənistandakı səfirliyinin nümayəndələri ilə görüşüb, Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyətini müzakirə edib.

Məlumdur ki, Ermənistanın baş naziri Qarabağda beynəlxalq missiyanın yerləşdirilməsini istəyir. Rusiya XİN-də hətta bu məsələyə münasibət bildirərək 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən, Qarabağda Rusiya hərbi kontingentinin yerləşdirildiyini xatırladıb. XİN bildirib ki, yeni missiyaya, İrəvanın olduğu kimi, Bakının da razılığı tələb olunur. Azərbaycan digər təşkilatlara olduğu kimi, BMT-yə də keçmiş "Dağlıq Qarabağ" əraziləri ilə birgə daxil olub. Dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ərazi bütövlüyünün ayrılmaz tərkib hissəsi kimi tanıyır. İrəvan, məsələn, Fransa kimi havadarı sayəsində BMT Təhlükəsizlik Şurasında bu avantüranın qəbuluna çalışarsa, aydındır ki, Rusiya buna veto qoyacaq.

Ermənistan və baş nazir Paşinyan indi Soros "dayı"sı"nı da bu planı cəlb etməklə həm Qərbin anti-Rusiya planında yer aldığını göstərir, həm də Qarabağ ermənilərinin az da olsa Soros Fondunun dolları hesabına "müqavimət göstərmələrinə" çalışır. *Bəs Azərbaycanın razılığı olmadan regiona BMT bayrağı altında beynəlxalq sülhməramlı missiyanın yerləşməsi mümkündürmü? Moskva özü bu çağırışları necə qarşılayacaq? Azərbaycan üçün hansı sərfəlidir, yoxsa heç biri? Məlumdur ki, Rusiya bölgədə hərbi varlığını sürdürmək istəyir. Hətta Paşinyan demişdi ki, rusların Qarabağda 10, hətta 20 il qalması üçün əlavə sənədə qol çəkməyə hazırdır. Amma Qərb Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmağı prioritet hədəf qoyub. 2025-ci ilə qədər bu proses sürətlənə bilərmi?*

**Deputat Razi Nurullayev** əmindir ki, ruslar Qarabağdan gedəcək. Onun "Yeni Müsavat"a bildirdiyinə görə, bu məsələ 2025-ci ildən o yana keçməyəcək: "BMT üzvü olan ölkələr və eləcə də bu təşkilat Azərbaycanın ərazi bütövlüyünü tanıyır. BMT işğal altında olmuş ərazilərimizin azad edilməsi üçün 4 qətnamə qəbul edib. Eyni zamanda Azərbaycan Qarabağda ermənilərə qarşı heç bir etnik təmizləmə həyat keçirməyib. Ona görə ermənilərin reinteqrasiyası üçün heç bir problem yoxdur. Bu mənada BMT qoşunlarının Qarabağa yerləşməsinə hər hansı əsas yoxdur". R.Nurullayev hesab edir ki, əgər ermənilərin orada həyatına təhlükə olsaydı, hər gün 10-15 erməni ölsəydi, o halda BMT tədbir görə bilərdi, qoşunları daxil edərdi: "Belə hallar olmadığı üçün BMT Təhlükəsizlik Şurası Qarabağa qoşunların yeritməsini heç müzakirə belə etməyib. Odur ki, Ermənistanda hansı kampaniya getməsinə baxmayaraq, bizim üçün belə bir təhlükə görünmür".

**Analitik Elxan Şahinoğlunun** sözlərinə görə, hər şeyə rəğmən məqsədimiz 9 noyabr 2020-ci il bəyanatının bəndlərindən birindən istifadə edərək Rusiya hərbi kontingentini iki ildən sonra evinə yola salmaq və bununla Azərbaycan torpaqlarında separatçılığa birdəfəlik son qoymaqdır. Bu həm də strateji müttəfiqimiz Türkiyənin də məqsədidir ki, Ərdoğan NATO toplantısında açıq şəkildə səsləndirib. "İndi top Rusiya prezidenti Vladimir Putinin meydanındadır, ancaq o bu məsələylə bağlı fikrini hələ söyləməyib. Kreml sahibinin mövqeyini öyrənməyin bir yolu var". E.Şahinoğlu hesab edir ki, Rusiya prezidenti bu ayın sonunda Türkiyəyə rəsmi səfər edəcək, Putin Ərdoğanla müxtəlif məsələləri, o cümlədən Azərbaycan-Ermənistan danışıqlarını və Zəngəzur dəhlizini müzakirə edəcək. "Prezidentlər böyük ehtimalla müzakirələrin sonunda mətbuatın qarşısına çıxacaqlar. Türkiyədə bu növ toplantılarda 4 suala imkan verilir, ikisini yerli jurnalist, ikisini qonaq jurnalist verir. Yerli jurnalistlərdən birinin "Cənab Putin, Rusiya Azərbaycanın istəyi ilə iki ildən sonra Qarabağdan hərbi kontingentini çıxarmağa hazırdırmı" sualını səsləndirməsinə ehtiyacımız var", - deyə ekspert düşünür.

**Hüquq müdafiəçisi Xəzər Teyyublu** da BMT sülhməramlılarının Qarabağa yerləşməsi üçün əsas görmür. Onun sözlərinə görə, 2025-ci ildə rusların bölgədən getməsinə xitam veriləcək: "Tərəflərdən birinin etirazı kifayət edir. Ərdoğan da Vilnüsdə bu məsələni yada saldı. Rusiya Azərbaycanla əlaqələri korlamaq istəmirsə, Qəbələ RLS-dən çıxdığı kimi, Qarabağdan da vaxtında getməlidir. Onların fəaliyyəti sülhyaratma missiyasına töhfə vermədi. Amma yerinə beynəlxalq missiyanın gəlməsinə ehtiyac yoxdur". Hüquq müdafiəçisi Ermənistan baş nazirinin sülhməramlıları tənqid etdiyini, həmin QHT-lərin də iqtidara bağlı olduğunu düşünür: "Paşinyan ictimai rəy yaradır ki, Rusiya Qarabağda ermənilərə kömək etmir. Onun məqsədi fransız hərbçilərini sərhədə gətirdiyi kimi Qarabağda da yerləşdirməkdir. Sonra Gümrüdən və Erabunidən rus hərbi bazalarını çıxarmaqdır. Təbii ki, Qərbin strateji planlarına daxil olan məsələdir. Ancaq Rusiyanın bu addımlara müqavimət göstərəcəyini fikirləşmək lazımdır. Onun Ukraynada hərbi əməliyyatları da məhz NATO-nu onun orbitinə yaxınlaşmaqdan çəkindirməkdir. İndi Cənubi Qafqaza da BMT qoşunları yerləşərsə, Rusiya üçün bu əraziləri strateji olaraq itirməklə nəticələnə bilər. Hər şeydən əvvəl isə Azərbaycan razılıq verməlidir. Bizim torpaqlarımızda isə sülhü Ordumuz təmin edir. Xankəndi və ətraf zonaya da öz hərbçilərimiz nəzarət etməlidir. Qarabağın yuxarı hissəsində hər hansı fəlakət baş vermir ki, ora BMT qüvvələri daxil olsun".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 137 (8273) 9 avqust 2023

**Ermənistan mediası son günlər "Azərbaycandaxili vəziyyətlə bağlı analitik yazılar" dərc edirlər. Bu "analtik yazılarda" Azərbaycandakı ən müxtəlif səbəbdən olan həbslər ciddi təhlil edilir, ölkədəki ictimai-siyasi vəziyyətin guya gərgin olduğu, insan haqları ilə bağlı problemlərin bu il ərzində daha da ciddiləşdiyi iddia olunur.**

# İrəvanın yeni həmləsi və hiyləsi: "Azərbaycandaxili vəziyyət..."

## Ermənistan mediasında ölkəmizdə ən müxtəlif səbəbdən olan həbslər ciddi təhlil edilir, ictimai-siyasi vəziyyətin guya gərgin olduğu iddia olunur-məqsəd

Bu təxribatçı "analizlərin" məqsədi aydındır. Bakı ilə Qarabağ ermənilərinin danışıqlarını əngəlləmək, guya Azərbaycandakı vəziyyətə görə ermənilərlə birgəyaşayış mümkün olmadığı haqda beynəlxalq rəy yaradılmasına çalışılır. Erməni saytlarının biri hətta Arif Yunusun bu cür "analitik yazısı"nı dərc edib. Xaricə sığınmış Arif Yunus Taleh Bağırzadənin həbsindən başlayaraq İran agentlər və son olaraq Qubad İbadoğlunun həbsinədək Azərbaycan hakimiyyətinin "antidemokratik idarəçiliyi" ilə izah etməyə cəhd edib. Ermənilər hazırda Niderlandda yaşayan bu milli kimliyini satmış adamın yazısını o səbəbdən yayımlayırlar ki, Azərbaycan haqda iftiralar guya daha inandırıcı olacaq. Bu, əslində illərdir Azərbaycan əleyhinə həm də Qərb mediasında aparılan qarayaxma kampaniyasının davamıdır və ermənilərin indi bu cür təxribatçı yazılara daha çox ehtiyacı var.

Ötən ilin yekunlarına əsasən, Ermənistan Avropa İnsan Haqları Məhkəməsinə (AİHM) müraciətlərin sayına görə ilk onluğa daxil olub. 2022-ci ildə Avropa İnsan Haqları Məhkəməsi Ermənistana qarşı 31 ərizə üzrə 21 qərar çıxarıb və onların hamısında ən azı bir pozuntu aşkar edib. Qeyd olunur ki, azadlıq və təhlükəsizlik hüququ, ədalətli məhkəmə araşdırması hüququ, mülkiyyətin müdafiəsi hüququ da Ermənistanda vaxtaşırı pozulur. Erməni hüquq müdafiəçiləri də qeyd edir ki, ölkədə, həmişə olduğu kimi, insan hüquqlarının pozulması davam edir. Son vaxtlarda bir çox hay-küylü həbslər insan hüquqlarının pozulması ilə müşayiət olunur. ABŞ Dövlət Departamentinin Ermənistanda insan haqlarının vəziyyəti ilə bağlı son hesabatı deyilənlərin təsdiqidir. Hesabatda Ermənistanda insan haqlarının pozulması halları yer alıb. Dövlət Departamenti hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən zorakılıqları, pis həbsxana şəraitini, əsassız həbsləri və söz azadlığının məhdudlaşdırılması hallarını təqdim edib.

**Deputat Azər Badamov** hesab edir ki, burada Ermənistanın ancaq bir niyyəti var, o da beynəlxalq ictimaiyyəti çaşdırmaqdır: "Ermənistan müxtəlif vasitələrə əl ataraq Azərbaycanın beynəlxalq arenadakı imicinə zərər vurmağa cəhd etməklə birgəyaşayışın mümkünsüzlüyü ilə bağlı yazıları dərc etməyə başlayıb. Belə ki, Laçın sərhəd-keçid məntəqəsinin yaradılması Ermənistanın çirkin niyyətlərini reallaşdırmasına davam etməsini dayandırmışdı. Döyüş meydanında acı məğlubiyyətə uğrayaraq kapitulyasiya sənədinə imza atmış Ermənistan təxribatlara əl ataraq Laçın yolu ilə bağlı böyük problemin olduğunu bildirərək beynəlxalq ictimaiyyəti çaşdırmağa başladı. 15 noyabrda Həkəri çayı üzərində tikilmiş körpüdə bayraq qaldıran Dövlət Sərhəd Xidmətinin əməkdaşlarına güllə açaraq bir hərbçiyə xəsarət yetirməsi və 29 iyuldan başlayaraq Laçın sərhəd postuna yaxınlaşan yolda humanitar yük adı altında siyasi manipulyasiyaya əl ataraq təxribatlara davam etməsi nəticəsiz qaldı. Ermənistanın cızdığı ssenarisi üzrə separatçıların Laçın sərhəd postuna yürüş planının Rusiya sülhməramlıları tərəfindən dəstəklənməməsi və belə məsələlərin öz vəzifələrinə daxil olmadığını bildirməsi ermənilərin bütün çirkin planlarını alt-üst etdi. İndi də Ermənistan mətbuatı Azərbaycanı daxili vəziyyətlə bağlı saxta analitik yazılar dərc etməklə Qarabağda yaşayan ermənilərin azərbaycanlılarla birgəyaşayışın mümkünsüz olduğunu təqdim etməyə çalışır. Birincisi, onu qeyd etmək istəyirəm ki, hansı erməni azərbaycanlılarla birgəyaşayışı mümkün hesab etmirsə, qapı açıqdır və ölkəmizin ərazisini tərk edib gedə bilər. Heç kimi ölkəmizdə yaşamağa məcbur etmirik. Qarabağda bir ovuc erməni yaşayır və Ermənistan onların Azərbaycanla birgəyaşayışını mümkünsüz hesab edirsə, onları aparsınlar öz ölkəsinə və onlar üçün yaxşı yaşayış şəraiti yaratsınlar. Azərbaycan 90-cı illərdə 1 milyondan çox qaçqın və məcburi köçkünü qəbul edib onlar üçün yaşayış şəraiti yaratdısa, Ermənistan 25-30 min erməni üçün şərait yarada bilməzmi? Təbii ki, bu, mümkündür və qoy kim Azərbaycanın tərkibində yaşaya bilməzsə çıxıb getsin və özləri üçün daha rahat, yeni bir yaşayış məkanı tapsın. Ermənistanın birgəyaşayışın mümkünsüzlüyü ssenarisi absurddur və bu, heç də qlobal problem deyil.

Deputat "sapı özümüzdən olan baltalara"da toxundu: " Ermənistan xaricdə yaşayan Arif Yunus kimi sapı özümüzdən olan baltaları pulla ələ alaraq Azərbaycanda insan haqlarının pozulması ilə bağlı özlərinin yaydıqları analitik yazılarını əsaslandırmağa çalışırlar. Amma Ermənistanın Azərbaycanda insan hüquqlarının pozulması ilə bağlı məsələni qeyd edərək birgəyaşayışın mümkünsüzlüyünü gündəmə gətirməsi gülməlidir. Belə ki, Ermənistanın özü insan haqlarının pozulmasına görə dünyada ən çox adı hallanan ölkələrin arasındadır. Belə ki, 2022-ci ilin yekunlarına əsasən, Ermənistanın Avropa İnsan Haqları Məhkəməsinə müraciətlərin sayına görə ilk onluqda yer alması bu ölkədə bu müstəvidə vəziyyətin dözülməz olduğunun göstəricisidir. ABŞ Dövlət Departamentinin hesabatında Ermənistanda hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən zorakılıqları, pis həbsxana şəraitini, əsassız həbsləri və söz azadlığının məhdudlaşdırılması hallarını təqdim edib. Ermənistanda siyasi baxışlarına görə insanların həbs edilməsi adi hala çevrilib. Belə ki, Azərbaycanda insan haqlarının pozulması və söz azadlığının məhdudlaşdırılması ilə bağlı məsələni gündəmə gətirməyə Ermənistanın heç bir haqqı yoxdur".



**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzov** ermənilərin reinteqrasiya prosesinə mane olmaq üçün bu cür yollara əl atdıqlarını qeyd etdi. Ekspert istənilən halda ehtiyatlı olmağın tərəfdarıdır: "Əslində bu, o qədər də təəccüblü deyil. Siyasətdə bu cür gedişlər adətən məqbul sayılır. Ermənistandan isə, bu cür oxşar, çirkin kampaniyalar əvvəllər də görmüşük. Ermənistanın Azərbaycanda antidemokratik mühitin hökm sürməsini iddia etməkdə və ciddi-cəhdlə bunu təsdiqləməyə çalışmaqda bir neçə məqsədi var. Birincisi, Ermənistan özünü demokratik ölkə kimi göstərsə də, orada təzyiqlər, siyasi təqiblər kifayət qədərdir. Odur ki, rəsmi İrəvan diqqəti öz üzərindən yayındırmağa, Azərbaycanda da oxşar vəziyyətin olduğunu göstərməyə çalışır. İkincisi, Ermənistan beynəlxalq ictimaiyyət arasında rəsmi Bakıya qarşı qınaq yaratmağa səy göstərir. Üçüncü məqam isə, məhz sizin dediyinizdir- Ermənistan hakimiyyəti reinteqrasiya prosesinə mane olmağa çalışır. Əslində bu da gözləniləndir. Rəsmi İrəvanın Qarabağdakı etnik ermənilərin Azərbaycana reinteqrasiyası məsələsi ilə bağlı mövqeyi aydındır. Doğrudur, Ermənistan bu cür cəhdlərlə reinteqrasiya prosesinin sürətinin azalmasına nail ola bilər. Amma prosesin qarşısını ala bilməz. Nəzərə almaq lazımdır ki, sözügedən məsələdə bizim tərəf müqabilimiz Ermənistan hərbi - siyasi hakimiyyəti və ya qondarma rejim yox, Qarabağdakı etnik ermənilərdir. O kəslər ki, ya vətəndaşlığımızı qəbul etməli, ya da torpaqlarımızdan çıxmalıdırlar. Bu mənada hansısa narahatlığa ehtiyac yoxdur. Amma beynəlxalq ictimaiyyətdə qıcıq yaratmamaqdan ötrü daha diqqətli və ehtiyatlı davranmaqda da fayda var".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Erməni yalanı BMT-yə niyə daha tez ayaq açır?

**Xarici İşlər Nazirliyi BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçiləri və müstəqil ekspertinin guya Azərbaycan tərəfindən "Laçın dəhlizinin" blokadada saxlandığı və "Dağlıq Qarabağ" bölgəsində "gərgin humanitar vəziyyət" yarandığı iddiasına cavab verib.**

Bildirilir ki, BMT xüsusi məruzəçilərinin və ekspertlərinin Ermənistanın manipulyasiyalarına aldanıb qərəzli bəyanatlar verməsi narahatlıq doğurur: "Bununla yanaşı, sözügedən şəxslərin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyərək bəyanatda "Dağlıq Qarabağ" kimi ifadələr işlətməsi, ölkəmizin daxili işlərinə qarışması və ikili yanaşmalar tətbiq etməsi qəbuledilməzdir.

Bir daha xatırlatmaq istərdik ki, Ermənistan, öhdəliklərinə zidd olaraq, silahlı qüvvələrini torpaqlarımızdan tam olaraq çıxarmamaqla yanaşı, Laçın yolu vasitəsilə onların rotasiyasını həyata keçirib, silah-sursatla təchiz edib, Azərbaycanın təbii sərvətlərinin talan edilməsi ilə məşğul olub. Bütün bunlar BMT və digər beynəlxalq təşkilatlar tərəfindən susqunluqla qarşılanıb.

Azərbaycan məhz öz sərhədlərinə nəzarət və Ermənistanın qeyri-qanuni fəaliyyətinin qarşısını almaq məqsədilə özünün suveren ərazilərində Laçın sərhəd buraxılış məntəqəsi təsis edib. Beynəlxalq Ədalət Məhkəməsinin də 6 iyul tarixli qərarında bu sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müraciəti yekdilliklə rədd etməsi bir daha Ermənistan tərəfinin iddialarının əsassız olduğunu sübut edib. Azərbaycan hal-hazırda bölgədə davamlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün səy göstərir və bu məqsədlə sülh sazişi, delimitasiya, kommunikasiyaların açılması istiqamətində təşəbbüslər irəli sürüb. Bu səyləri dəstəkləmək əvəzinə, qərəzli bəyanatlar verilməsi prosesə müsbət təsir etməyəcək", - XİN-dən bildirilib.

YENİ MÜSAVAT
N 137 (8273) 9 avqust 2023

# Xəzərdə təhlükə-şimal hissəsi cənuba doğru sürüşəcək

## Dəniz sahəsini 28 min kvadratkilometr itirib ki, bu, Ermənistan ərazisi ilə müqayisə edilə bilər...

**Xəzər dənizində suyun səviyyəsi okeanların səviyyəsindən 28 metr aşağıdır. Bununla belə, alimlər proqnozlaşdırırlar ki, XXI əsrdə Xəzər dənizinin səviyyəsi daha on metr aşağı düşə bilər.**

Xəzər dənizində suyun səviyyəsi əsasən çay axınının həcmindən və buxarlanmanın intensivliyindən asılıdır. Xəzər dənizi hövzəsi Rusiya düzənliyinin əhəmiyyətli hissəsini əhatə edir, Volqa çayı isə Xəzərin suyunun təxminən 70%-ni təmin edir. Müvafiq olaraq göl-dənizdə suyun səviyyəsi vaxtaşırı dəyişir və dayazlaşma-qalxma dövrləri əsrlər boyu davam edə bilər.

XIX əsrin əvvəllərində Xəzər dənizinin səviyyəsi tarixi dövrdə maksimum həddə çatıb - dünya okeanının səviyyəsindən 22 metr aşağı... XX əsrdə suyun səviyyəsi artıq aşağı idi, lakin 1929-cu ilə qədər Xəzər hələ də kifayət qədər dolu idi. “Xəzər dənizi: hidrologiya və hidrokimya” adlı sovet monoqrafiyasında 1930-cu illərdə dənizin səviyyəsinin 1,8 metr aşağı düşdüyü bildirilir. Bu hadisənin səbəbi Xəzər dənizi hövzəsində rütubətin azalması və Şimal yarımkürəsində iqlimin ümumi istiləşməsidir. Müvafiq olaraq dənizin sahəsi də dəyişdi - o, 28 min kvadratkilometr itirdi, bu, məsələn, Ermənistan ərazisi ilə müqayisə edilə bilər. Ölü Kultuk, Kaydak və Sine Mortso körfəzləri qurudu, adaların sahəsi artdı. 1942-1969-cu illərdə çaylar Xəzərə daha çox su gətirməyə başladı. Volqada iri bəndlərin tikintisindən sonra vəziyyət dəyişdi. 1970-ci illərdən etibarən yeni dayazlaşma dövrü başladı və daha da intensivləşdi. Əgər 1930-cu illərdə çay suyunun qıtlığı ildə 5-7 kubkilometr idisə, 1980-ci illərdə Xəzərə artıq 50 kubkilometrdən də az su gəlirdi. Suyun səviyyəsi 1977-ci ilə qədər davamlı olaraq azaldı, bundan sonra bir qədər sabitləşmə oldu. Suyun buxarlanmasını azaltmaq üçün 1980-ci ildə dənizin əsas hissəsi ilə Qara-Boğaz-Gölün dayaz körfəzi arasında “tava” ilə müqayisə edilən bənd tikildi. Su qalxmağa başladı və 1995-ci ilə qədər Xəzər dənizinin səviyyəsi 2,5 metr qalxdı. 1996-cı ildə yeni eniş başladı, 2016-2021-ci illərdə daha da gücləndi. **AMEA Akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutu “Xəzər dənizinin sahillərinin və dibinin geomorfologiyası” şöbəsinin müdiri, coğrafiya elmləri doktoru, professor Əmir Əliyevin** sözlərinə görə, bu dövrdə Volqanın axını 30% azalıb, nəticədə dəniz səviyyəsi 1,5 metr “batıb”. Bəzi yerlərdə su sahildən bir neçə yüz metr, haradasa bir kilometr uzaqlaşıb.



Yeri gəlmişkən, 2021-ci ildə “Geophysical Research Letters” jurnalında da Xəzər dənizinin səviyyəsinin növbəti 75 ildə 5 metr aşağı düşəcəyini iddia edən məqalə dərc edilib. Elə həmin il Utrext Universitetinin geoloqu Frank Vesselinq də eyni fikirdə olduğunu bəyan etdi. Atlantik siklonların inkişaf tendensiyalarını təhlil etdikdən sonra o, 2100-cü ilə qədər Xəzər dənizinin səviyyəsinin 9-18 metr aşağı düşəcəyini irəli sürdü. Onun proqnozuna görə 10 metrə qədər dərinliklər Xəzər dənizinin ərazisinin 27%-ni, əsasən onun şimal hissəsində Rusiya və Qazaxıstan sahillərini yuduğu üçün dayazlaşma baş verərsə, bütün Şimali Xəzər quruya çevrilə bilər. Xəzərin dayazlaşması halında Volqa deltası cənuba doğru sürüşəcək. Həştərxan vilayətinin Xəzəryanı rayonlarının, Dağıstan və Kalmıkiyanın iqtisadiyyatı əhəmiyyətli dərəcədə dəyişəcək. Duzlu bataqlıqlar və qumlar bu bölgəyə toz fırtınaları gətirəcək. Xəzər dənizinin özündə isə daha az balıq olacaq, məşhur Xəzər suitisi də təhlükə altında olacaq.

**Tədqiqatçı Əmir Əliyev** 2050-ci ilə qədər dəniz səviyyəsinin 2-3 metr azalacağını proqnozlaşdırır - bu isə Qərb alimlərinin proqnozlarında olduğu kimi fəlakətli deyil.

**“Biosfer” İctimai Birliyinin sədri Qorxmaz İbrahimli** “Yeni Müsavat”a bildirdi ki, Xəzər dənizinin daha da aşağı enməsi gözləniləndir. O, hazırda iqlim dəyişikliyi ilə əlaqədar Xəzər dənizində çəkilmə prosesinin getdiyini qeyd etdi: “Yağıntının miqdarı azdır. Əsas sudaşıyıcı çaylarda azalma baş verir ki, bu təkcə quraqlıqla deyil, eyni zamanda kənd təsərrüfatının inkişafı, suvarmanın düzgün həyata keçirilməməsi və s. bağlıdır. Digər tərəfdən, ən böyük sudaşıyıcı hövzə olan Volqa çayında da suyun səviyyəsi azalıb. Havalar çox isti keçdiyi üçün buxarlanma çoxdur. Bütün bu amillər Xəzərdə suyun səviyyəsinin azalmasına səbəb olur. Eyni zamanda yeni geoloji erada Qafqaz Sıra Dağları Alp-Himalay qurşağının cavan dağəmələgəlmə zonasındadır, bununla əlaqədar su sahəsi kiçilməyə başlayıb. 2050-ci ilə qədər dənizin səviyyəsi 2-3 metr azalarsa, bu, normal haldır, amma bu o demək deyil ki, bir müddət sonra Xəzərin səviyyəsi qalxmayacaq. 1989-cu ilə qədər Xəzər dənizinin səviyyəsi sürətlə qalxmışdı. Hətta sahilboyu bütün tikililər dağılmışdı. Məlumdur ki, iqlim dəyişikliyi ilə əlaqədar qütblərdə buzlaqlar əriməyə başlayıb. Bu baxımdan Volqa çayı və digər su hövzələrinə su axını arta bilər. Odur ki, Xəzərin səviyyəsinin həddən aşağı düşəcəyini, Aral kimi quruyacağını düşünmürəm. Əsas su ehtiyatı qar yağması ilə yaranır. Yağıntı az olduğuna görə (bu, səhra, yarımsəhra zonasına düşən Abşeron yarımadasına aid deyil) Xəzərin sudaşıyıcı çaylarında-Volqa, Terek, Samurda da su azalır. Nəticədə Xəzərin şimal hissəsi cənuba doğru sürüşəcək. Bizim üzərimizə düşən Xəzərə sudaşıyıcı çayların düzgün istifadə olunmasını təmin etməkdir. Xüsusilə Ceyrançöl sahəsində suvarma düzgün aparılmır. Kürün suyu düzgün paylanmadığına görə çayın səviyyəsi aşağı düşür”.

Ekspert qeyd etdi ki, bir müddət öncə İtaliya, Yunanıstan, İspaniyanın cənub hissəsi, Türkiyəyə Afrikadan isti hava kütləri daxil olmağa başladı: “Bu hava kütləri küləklə gəldi. Hazırda İran ərazisində isti hava kütləri dolaşmaqdadır. Əgər güclü küləklə müşayiət olunacaqsa, duz müəyyən əraziyə dağıla bilər, lakin deyək ki, Urmiyə gölündən Şimali Azərbaycan ərazisinə qədər dağılacağını güman etmirəm. Bizim ərazimizdə duzlaşmış sahələr varsa, duzlu qumlar varsa, Abşeron yarımadasında bir yerdən başqa yerə daşına bilər. Hər zaman olmasa da, güclü şərq küləkləri Orta Asiya səhralarından bura qədər duzlu qumları toz halında gətirə bilər. Belə olan təqdirdə Xəzərin flora və faunasına hər hansı ciddi mənfi təsir olacağını düşünmürəm, çünki balıqlar müəyyən duz səviyyəsi olan su sahələrində yaşaya bilirlər. Balıqları qorumaq üçün dənizi çirkləndirməməliyik”.

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

# İstidə iş rejimi necə olmalıdır?

## Nazirlik hava şəraiti ilə bağlı əhaliyə müraciət etdi

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi isti hava şəraiti ilə bağlı əhaliyə müraciət edib. Nazirliyin Milli Hidrometeorologiya Xidmətinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova bildirib ki, hazırda ölkə ərazisində isti hava şəraiti müşahidə olunur: “Əksər rayonlarda hava yağmursuz olsa da, lakin bəzi dağlıq ərazilərdə - Dağlıq Şirvan, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin bəzi yerlərində qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimal olunur. Cənubdan hərəkət edən isti hava kütləsinin ölkə ərazisində təsiri nəticəsində havanın maksimal temperaturu həftə sonunadək Bakı və Abşeron yarımadasında 37-40, bölgələrdə 36-41, Naxçıvan Muxtar Respublikasının və Mərkəzi Aran rayonlarının bəzi yerlərində 42-44 dərəcəyədək yüksələcəyi gözlənilir”.**



O, söyləyib ki, durğun və rütubətli hava şəraiti günün bəzi saatlarında bürkü yarada bilər: “Bu, əhali üçün əlverişsizdir. İsti hava şəraitində əhalinin bol maye qəbul etməsi məsləhət görülür. Uzun müddət açıq havada günəş şüaları altında qalmaq tövsiyə olunmur”.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) Əmək Məcəlləsinin 233-cü maddəsinə əsaslanaraq yay mövsümü ilə əlaqədar üzv təşkilatların xidmətinə daxil olan müəssisə və təşkilatlarda havanın hərarəti 41 dərəcəni keçərsə, açıq havada işlərin dayandırılmasına ictimai nəzarətin həyta keçirilməsini tövsiyə edib.

AHİK-in Hüquq, Əməyin mühafizəsi və Mətbuat və ictimaiyyətlə əlaqələr şöbələrinin birgə məlumatında göstərilir ki, burada məqsəd iş yerlərində sağlamlığa mənfi təsir edən isti havalarda açıq şəraitli iş yerlərində işçilərə müəyyən olunmuş qaydada fasilələrin verilməsi və ya işin dayandırılmasına həmkarlar ittifaqlarının ictimai nəzarətinin gücləndirilməsini təmin etməkdən ibarətdir.

Əmək Məcəlləsinin 2-ci əlavəsində işçilərə fasilələrin verilməsi və işin dayandırılması üçün əsas hesab edilən havanın temperaturu və küləyin gücü göstərilib.

Azərbaycan Konstitutsiyasında nəzərdə tutulduğu kimi, əmək hüquqlarının tənzimlənməsi çərçivəsində işəgötürən əməyin təhlükəsizliyi və gigiyenası tələblərinə cavab verən iş şəraiti yaratmalıdır. Əmək müqaviləsi və kollektiv müqavilələrdə bu məsələlər nəzərdə tutulur və nəzarəti həmkarlar təşkilatları yerinə yetirir, həmçinin nəzərdə tutulan şərtlərin yerinə yetirilməsi və işçinin əməyinin təhlükəsizliyinin təmin edilməsi işəgötürənin əsas vəzifələrindən biridir. Əmək müqaviləsində işçilərin sosial müdafiəsi, əmək şərtləri, iş və istirahət vaxtları və digər məsələlərlə yanaşı, əməyin mühafizəsi üzrə onların hüquqları da nəzərdə tutulur.

Qeyd edək ki, havanın temperaturu müsbət 41 dərəcəni keçərsə, açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılır və işçilərə sərinləmək üçün imkan yaradılmaqla fasilələr verilir. Əmək Məcəlləsinin 233-cü maddəsinin 4-cü hissəsinə əsasən, fasilələr iş vaxtına daxil edilir və bu fasilələr zamanı əməkhaqqı işçilərin tarif maaşına görə ödənilir. Soyuq və isti hava şəraitində fasilələr və işin dayandırılması zamanı əməkhaqqının ödənişi sistemində Əmək Məcəlləsinin müəyyən etdiyi normalardan kənaraçıxma halları müşahidə edilərsə, onda tərəflər əməyin mühafizəsinə nəzarət edən orqanlara, həmkarlar ittifaqlarına və ya məhkəməyə müraciət edə bilərlər.

Yeni MÜSAVAT
N 137 (8273) 9 avqust 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Uydurma "Qarabağ blokadası" haqda "film"

## "Rejissor" yalanlarla yanaşı, Azərbaycan hərbçilərinə də qarayaxmaqdan çəkinməyib

**Daim Azərbaycan və onun müttəfiqi Türkiyə barəsində ağlasığmaz uydurmalar yayaraq dünya ictimaiyyətini çaşdırmağa çalışan Ermənistan bu dəfə də "Qarabağ blokadası" haqda "film" çəkib.**

Ednews-un məlumatına görə, "film"də Ermənistanın bölgədə Beynəlxalq Qırmızı Xaç Komitəsinin fəaliyyətini, hər gün onlarla erməni sakinlərin məntəqədən hər iki istiqamətdə keçməsini və Azərbaycanın "Ağdam-Xankəndi" marşrutu daxil olmaqla, alternativlər irəli sürməsini gözardı edərək "blokada" barədə yalanları əks olunub.

"Film" tamamilə yalan səhnələrdən ibarətdir. "Rejissor" yalanlarla yanaşı, Azərbaycan Silahlı Qüvvələrində xidmət göstərən yüksək rütbəli hərbçilərə də qarayaxmaqdan çəkinməyib. Onlar Laçın dəhlizinin "blokada"sında "mühüm rol oynamaqda" günahlandırılıb. Həmçinin Azərbaycanın aqressor kimi göstərilməsi, guya Qarabağda yaşayan ermənilərə zülm edildiyi göstərilib.

"Film"in fraqmentləri artıq erməni mediasında yayılıb.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsindən sonra Ermənistan bu kimi xeyli sayda "film" ərsəyə gətirib. Onlardan biri "Si le vent tombe" ("Əgər külək əsərsə") adlanır. Xatırladaq ki, Qarabağ hadisələrinin təhrif olunduğu bu "film"in hazırlanmasına 12 milyon dollar xərclənib və Ermənistan, Belçika və Fransanın ortaq istehsalıdır. Rejissoru isə erməni əsilli Nora Martirosyan Fransa vətəndaşıdır. "Film" 73-cü "Kann film festivalı"na təqdim olunub və "ən yaxşı" 56 "film"dən biri olub.

Ermənilərin uydurma Qarabağ hadisələri ilə bağlı çəkdikləri daha bir film "45 Gün: millət uğrunda mübarizə" adlı sənədli filmdir. 2021-ci ildə ərsəyə gələn film Oskar mükafatına namizəd seçilmişdi. Filmin rejissoru britaniyalı Britaniya Kral Dəniz Piyadalarının keçmiş komandiri Emil Hessendir.

Ötən il isə ermənilərin Aprel döyüşləri haqda çəkdikləri uydurma ABŞ-nin nüfuzlu 19-cu "Accolade Qlobal Film Yarışması"nda əsas mükafata layiq görüldü. Rejissor Roman Muşeqyan tərəfindən çəkilən "Bahar... " 2016-cı ildə baş vermiş Aprel döyüşlərinə həsr olunub. "Film"də ermənilər özlərini soyqırıma məruz qalan tərəf kimi göstərib.



Azərbaycana gəldikdə isə, 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərdən az qala 3 il yaxın vaxt keçməsinə baxmayaraq, hələ də dünya səviyyəsində film çəkilməyib. Bununla bağlı dövlət səviyyəsində lazımı tapşırıqlar verilsə də, ərsəyə gələn bir iş yoxdur. Hətta bir müddət əvvəl Mədəniyyət Nazirliyinin dəstəyi ilə şərti adı "Qarabağ Vətən Müharibəsi" olan 8 bölümlü bədii serialın çəkiləcəyi deyilsə də, bu məsələ də öz həllini tapmayıb.

*Bəs səbəb nədir?*

Bəzi kinematoqrafçılar bunu müxtəlif səbəblərlə izah edir. **Xalq artisti, "Dədə Qorqud", "Babək" kimi tarixi filmlərdə əsas rolları canlandırmış Rasim Balayev** "Yeni Müsavat"a açıqlamasında bunun səbəbinin çox olduğunu demişdi:

"Səbəb çoxdur. Əsas səbəblərdən biri budur ki, yaxşı ssenari yoxdur, kifayət qədər vəsait lazımdır və sairə. Ümumiyyətlə isə, adətən müharibə filmləri müharibədən bir neçə il sonra yaranır. Məsələn, İkinci Dünya müharibəsindən illər sonra ortaya sanballı müharibə filmləri çıxmağa başladı. Əslində biz ön cəbhəyə operatorlar göndərməli idik ki, xronikalar çəksinlər. Çəkdilərmi? Bizim igid oğlanlarımızın müharibədəki şücaətlərini həmin xronikalardan götürmək olardı.

Qeyd etdiyim kimi, müharibə ilə bağlı bədii filmlər illər sonra yaranır, yəqin ki, bir neçə ildən sonra, bəlkə də bu ildən və yaxud gələn ildən filmlər çəkilər. Gördüyünüz kimi, bizim Qarabağ məsələmiz hələ də həll olunmamış qalır, həlli daima uzanır. Sülh müqaviləsi ətrafında siyasi oyunlar, təxribatlar gedir. Ona görə də hələ vaxt lazımdır ki, ssenaristlər bir qədər fikirləşsinlər, yazsınlar. Yəni müharibə filmi o dəqiqə yaranmır.

Şuşada olanda mənə göstərdilər ki, igidlərimiz ağır yüklərlə keçilməz sıldırım qayaları keçib, düşmənə qalib gəliblər. Təsəvvür edin, adam adi halda, yüksüz o sıldırım qayaları çıxa bilməz, amma əsgərlərimiz silah-sursatla qayaları fəth edib, düşmənə qalib gəlib. Bu, ağlasığmaz, böyük qəhrəmanlıqdır! Bizim indi borcumuzdur ki, bunu çəkək, ekranlara daşıyaq".

Qeyd edək ki, artıq bir müddətdir ki, kinematoqrafiyanın inkişafının, o cümlədən yerli və müştərək kino istehsalının dəstəklənməsi, kino mədəniyyətinin təbliğinin təşkili, kinematoqrafiya müəssisələrinin və kino sənayesi iştirakçılarının fəaliyyətinin, eləcə də kinematoqrafiya sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, Azərbaycan kinematoqrafiyasının dünya kinematoqrafiyasına inteqrasiyası məqsədilə Mədəniyyət Nazirliyinin nəzdində Kino Agentliyi yaradılıb. Agentlik bu günlərdə 2023-2024-cü illərdə istehsal olunmaq üçün film layihələri müsabiqəsi elan edib.

Həmçinin bir neçə gün öncə ölkədəki iki kino ittifaqı bir qurum ətrafında birləşdi. Ümid edilir ki, bütün bunlardan sonra Azərbaycan milli kinosu yenidən dirçələcək, kinematoqrafçılar Azərbaycan, Qarabağ həqiqətlərini, reallıqlarını kinonu dili ilə dünya ictimaiyyətinə çatdıra biləcək.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY**

# Ermənisayağı ordu "islahatları" - nazir müavini də mülki şəxs oldu

## Ekspertlərə görə, Paşinyan ordu rəhbərliyinə güvənmir

**Xəbər verildiyi kimi, kapitulyant ölkədə İrəvan merinin müavini Hraçya Sərkisyan Ermənistan Respublikası müdafiə nazirinin müavini təyin olunub.**



Musavat.com erməni mediasına istinadən bildirir ki, yerli "Joxovurd" qəzeti bununla bağlı maraqlı məlumat yayıb. Qəzetin yazdığına görə, Sərkisyanın təyinatı nazir Suren Papikyanın rəhbərliyə gətirilməsi kimi Müdafiə Nazirliyi üçün gözlənilməz olub. Gələn informasiyalara görə, nazirlik dəhlizlərində 38 yaşlı Sərkisyanın Silahlı Qüvvələr və ya hərbi idarə ilə hansı əlaqəsi olması barədə müzakirələr gedir. Onun mer olduğu dövrdə İrəvan metrosunda böyük sui-istifadə halları baş verib, bununla bağlı cinayət işi başlanıb. Üstəlik, Dövlət Nəzarəti Xidməti bu xəbəri təkzib və ya təsdiq etməyib.

Qeyd edək ki, nazir Suren Papikyanın da hərbi təhsili yoxdur. O, tarix müəllimi işləyib. Odur ki, məntiqli sual ortaya çıxır: baş nazir Nikol Paşinyan bu təyinatlarla nə etmək istəyir, hədəf nədir?

Xatırladaq ki, Ermənistan hökumətinin iki il öncə qəbul etdiyi proqramda silahlı qüvvələrdə islahat, hətta peşəkar orduya keçid prioritet elan edilib. Az öncə ölkədə qadınların belə orduda xidmətini mümkün edən qanun qəbul edilib. İrəvan həmçinin Fransa, Hindistan və İran hesabına (Rusiyanın özünə silah lazımdır) ordunu təzədən dirçəltmək kursu götürüb.

*Təsadüfi deyil ki, kasıb və cırtdan ölkədə bu ilin hərbi büdcəsi rekord həddə - 1 milyard dollar civarında müəyyən edilib. Belə olan surətdə N.Paşinyan nədən Müdafiə Nazirliyi rəhbərliyinə qeyri-peşəkarları gətirir? Bu kimə siqnaldır və ya ismarışıdır? Yoxsa özünün təhlükəsizliyindən narahatdır? Bəlkə savadlı hərbçilərin hamısının Rusiyaya bağlı olmasından əndişəlidir?*

**Hərbi ekspert Emin Həsənli** "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda xüsusilə 44 günlük Vətən müharibəsindən sonra hərbi rəhbərlikdə tez-tez dəyişikliklər olur: " Paşinyan ordu rəhbərliyinə güvənmir. Xatırlayırsınızsa, ordunun bir neçə yüksək rütbəli nümayəndəsi Paşinyana müraciət etmişdi ki, istefa versin. Ordu siyasətə qarışmışdı. Paşinyan o zaman dəyişikliklər etdi. İndi də davamlı şəkildə bu dəyişiklikləri edir. Erməni baş nazir hətta açıq şəkildə mesaj vermişdi ki, Azərbaycanla sərhəddə təxribatları törədən Ermənistan tərəfidir. Belə bir etiraf etmişdi. Ermənistan tərəfdə generallar var ki, "beşinci kolon"a işləyir. Paşinyan üstüörtülü şəkildə onların Rusiyaya işlədiyi mesajını vermişdi. Heç kəsə sirr deyil ki, Paşinyan Amerika başda olmaqla Qərbin layihəsidir. Onu Qərb dəstəkləyir. Onun alternativləri Rusiyaya bağlıdır. Ermənistan heç bir zaman müstəqil dövlət olmayıb. Oradakı qərarları ya Rusiya, ya da Amerika tərəfi verib. Müəyyən vaxtlarda da Rusiyanın bu və ya digər şəkildə təsir dairəsində olub. İranla da müttəfiqlikləri məlumdur. Amma idarəetmədə əvvəl Rusiya daha çox təsir edirdi, son dönəmlərdə də Amerika. Ona görə də bu dəyişikliklərə bu mövqedən baxmaq lazımdır. Son dönəmlər onun atdığı bəzi addımlar Ermənistan cəmiyyətində narazılıqlar yaradıb. O, ehtiyat edir ki, hərbi çevriliş ola bilər. Bilirsiniz ki, bu tipli ölkələrdə Rusiya və Qərb davamlı olaraq çevrilişlər təşkil edir. Son olaraq biz Afrikada bu prosesləri gördük. Ermənistan tipli ölkələrdə hakimiyyət dəyişikliklərinin tez-tez olmasının, bu tipli proseslərin də arxasında xarici dairələrin durmasının zaman-zaman şahidi oluruq. Rusiya daha çox hərbi çevrilişlər edir, Qərb isə demokratiya adı altında bu prosesləri həyata keçirməyə çalışır. Burada siyasi partiyalardan, QHT-lərdən istifadə olunur. Ermənistanda Levon Ter Petrosyanın, Serj Sərkisyanın hakimiyyətdən uzaqlaşdırılması ilə belə proseslərə şahidlik edilib. Petrosyanın hakimiyyətdən uzaqlaşdırılmasını Rusiyameyilli qüvvələr təşkil etdilər. Ondan sonra hər kəs yaxşı xatırlayır ki, Ermənistan parlamentində güllləbaran oldu. Bunu rusmeyilli qüvvələr təşkil etdi. Həmin qüvvələr bunu o zaman etmişdilər ki, Ermənistanla Azərbaycan arasında danışıqlar baş tutmasın. Sərkisyanı isə Amerikaya bağlı qüvvələr devirdilər. Bunu da küçə aksiyaları ilə həyata keçirdilər. Paşinyan bunu yaxşı bildiyindən Müdafiə Nazirliyində hər zaman özünə yaxın şəxslərin olmasına çalışır. Orada peşəkarlığın, hərbi təhsilin, bacarığın olması ikinci dərəcəli məsələdir. İndiki dönəm üçün birinci məsələ sədaqətdir. Ondan sonra digər məsələlər gəlir. Paşinyanı ona yaxın olan şəxsin peşəkar olmaması deyil, daha çox yaxın olmayanın peşəkar olması ciddi narahat edir. Ona görə də özünə bağlı olan şəxslərin daha çox hakimiyyətdə olmalarını təmin etməyə çalışır".

**Hərbi ekspert Alp Arslan İmamqulu** erməni tərəfin çox acınacaqlı durum yaşamağa davam etdiyini bildirdi: "Ermənistanda son təyinatlar onu göstərir ki, baş nazirin bir çox istiqamətlər üzrə ciddi narahatçılıqları var. Çünki mövcud vəziyyətdə nəinki Ermənistanın silahlı qüvvələri, ən kiçik birlik və birləşmələri Rusiya tərəfindən diktə edilməkdədir. Bu baxımdan Ermənistan rəhbərliyi özünün təhlükəsizliyi adına güvənilir şəxsləri iş başına gətirməkdədir. Təbii ki, hərbi karyerasını nəzərə alaraq bunu edə bilməyəcəyi üçün mülki sektordan mütəxəssislər, yaxud o istiqamətdən az-çox məlumatlı olan şəxslər vəzifə başına gətirilməkdədir. Bu da Ermənistan hakimiyyətinin nə qədər acınacaqlı vəziyyətdə olduğunun göstəricisidir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (8273) 9 avqust 2023

# Dövlət borcu ilə bağlı yeni limit: daha çox borc alacağıq, yoxsa...

**Rəşad Həsənov:** "Ərazilərin bərpa xərci nəsillər arasında bərabər bölünməlidir"

**Natiq Cəfərli:** "Alınacaq borclar səmərəli və şəffaf xərclənməsə"...

**Azərbaycan xarici borclanmanı artırmağa hazırlaşır. Ötən həftə Prezident İlham Əliyevin sərəncamı ilə "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda edilən dəyişiklik bundan xəbər verir. Sərəncama əsasən, 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faizi, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi hədəflənir. Xatırladaq ki, indiyə qədər hədəf 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 20 faiz, o cümlədən xarici dövlət borcunun ÜDM-də payının isə 10 faiz ətrafında saxlanılması idi.**



Yada salaq ki, Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bu barədə danışıb: "Bir neçə il bundan əvvəl biz qarşıya hədəf qoymuşduq ki, xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun 10 faizinin altında olsun. Biz artıq bu hədəfə də çatdıq" deyib. Dövlət başçısı bildirib ki, mütləq rəqəmlərdə Azərbaycanın xarici borcu cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir.

"2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda edilən dəyişiklikdən görünür ki, Azərbaycanda dövlət borclanmasının həcmi artırılacaq. Belə ki, dəyişikliklə həm ümumi dövlət borcunun ÜDM-dəki payı artırılır, həm də xarici borcun həcmi. Yaxın və ortamüddətli dövrdə Azərbaycan ÜDM-də az da olsa artımın olacağını nəzərə alsaq, borclanma limitinin də artacağını söyləyə bilərik.

2023-cü ilin dövlət büdcəsinin layihəsi hazırlanan zaman İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilmiş proqnozlara əsasən, xam neftin qiyməti əsasında 3 ssenari üzrə QDM artımı proqnozlaşdırılıb. Baza (hədəf) ssenarisində neftin qiyməti 50 ABŞ dolları, optimist ssenaridə 60 ABŞ dolları, pessimist ssenaridə isə 40 ABŞ dolları götürülüb. Bu əsasda təqdim olunan məlumatlara əsasən ÜDM-in artım tempi 2023-cü ildə baza (hədəf) ssenarisində 2,7 faiz, həcmi 106,0 milyard manat, optimist ssenaridə 3,3 faiz (0,6 faiz-bənd çox) və ya 111,2 milyard manat (5,2 milyard manat çox), pessimist ssenaridə isə 1,3 faiz (1,4 faiz-bənd az) və ya 99,1 milyard manat (6,9 milyard manat az) təşkil edə bilərdi. Lakin hökumət bu proqnozlara dəyişiklik edib. Maliyyə Nazirliyinin açıqladığı məlumata əsasən, 2023-cü ilin ötən dövrünün makro-iqtisadi nəticələri ilə yanaşı, fiskal icra göstəriciləri və əmtəə bazarlarının konyukturası cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsini şərtləndirib.Yenilənmiş makroiqtisadi proqnozlara əsasən, 2023-cü ildə baza ssenari üzrə ÜDM-in real ifadədə 1,8 faiz artmaqla 111,6 milyard manata (əvvəlki proqnoza nəzərən 5,6 milyard manat çox), o cümlədən qeyri-neft/qaz ÜDM-in real ifadədə 4,9 faiz artmaqla 77,7 milyard manata (əvvəlki proqnoza nəzərən 4,4 milyard manat çox) çatacağı proqnozlaşdırılır.

Xatırladaq ki, Standard & Poors Beynəlxalq Reytinq agentliyi 2023-cü il üzrə Azərbaycanın real ümumdaxili məhsulunda (ÜDM) artım olmayacağını, 2024-2026-cı illərdə isə artımın 1,4 faiz səviyyəsində olacağını proqnozlaşdırıb: "Biz Azərbaycanın real ÜDM-in 2023-cü ildə durğunlaşacağını proqnozlaşdırırıq ki, bu da əvvəlki dekabr 2022-ci il proqnozumuza uyğundur. 2023-cü ildə qeyri-neft sektoru böyüməyə davam etsə və qaz hasilatında müəyyən artım olsa da, neft hasilatının aşağı salınması bir maneə olacaq. Neft hasilatının azalması ortamüddətli perspektivdə artıma təsir göstərməyə davam edəcək və biz 2024-2026-cı illər ərzində orta real artımın 1,4 faiz olacağını proqnozlaşdırırıq".

Agentliyə görə, bu il Azərbaycanın nominal ÜDM-i 77 milyard dollar (2022-ci ildə 79 milyard dollar olub), 2024-cü ildə 81 milyard dollar, 2025-ci ildə 84 milyard dollar, 2026-cı ildə 87 milyard dollar təşkil edəcək.

Maliyyə Nazirliyinin rəsmi məlumatına əsasən, 2023-cü ilin 01 iyul tarixinə xarici dövlət borcu 6576,9 milyon ABŞ dolları təşkil edib. Bu isə ilin sonunadək onun 195,9 milyon dollar azaldılacağı deməkdir. Hesabat dövrünə daxili dövlət borcu 4 milyard 970,3 milyon manat təşkil edib.

Daxili dövlət borcunu daxili maliyyə bazarında yerləşdirilən dövlət qiymətli kağızları üzrə qalıq borc təşkil edib. Hesabat tarixinə daxili dövlət borcunun 27,5 faizi 1 illik, 52,1 faizi 2 və 3 illik, 20,4 faizi isə 5 il və daha artıq müddətli dövlət qiymətli kağızlarının payına düşür.

2023-cü il büdcəsində edilmiş dəyişikliklə cari ildə dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 3,2 faizi həcmində və ya 1 milyard 182,5 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 177,5 milyon manat və ya 17,7 faiz çox) vəsait yönəldiləcək. 2023-cü ilin yanvar-iyun aylarında dövlət borcuna xidmət edilməsi ilə bağlı xərclər 430,8 milyon manat təşkil edərək dövlət büdcəsinin həmin dövr üzrə ümumi xərclərinin 3,1 faizinə bərabər olub. Sözügedən vəsaitin 352,7 milyon manat həcmində hissəsi xarici dövlət borcuna xidmət xərclərinin, o cümlədən 201,1 milyon manatı hökumət tərəfindən cəlb olunmuş xarici dövlət borcu üzrə faiz ödənişlərinin, 78,1 milyon manatı isə daxili dövlət borcuna xidmət xərclərinin (faiz ödənişləri) təmin edilməsinə yönəldilib.

Xarici dövlət borcu üzrə imzalanmış müqavilələr çərçivəsində cari ilin ilk altı ayı ərzində 113,3 milyon manat istifadə edilib.

Nazirliyin hesablamasına əsasən, 2024-cü ilin 01 yanvar tarixinə Azərbaycanın xarici dövlət borcunun 6 milyard 381,0 milyon ABŞ dolları (10 milyard 847,0 milyon manat), daxili dövlət borcunun isə 6 milyard 688,0 milyon manat olmaqla ümumi dövlət borcunun17 milyard 536,0 milyon manat təşkil etməsi gözlənilir. Bu isə ilin sonuna proqnozlaşdırılan ÜDM-in 15,6 faizinə bərabər olacaq.

**İqtisadçı-ekspert Rəşad Həsənovun** dediyinə görə, Azərbaycanın xüsusilə azad olunan ərazilərin bərpası üçün xaricdən borc almaq ehtiyacı var: "Düşünürəm ki, borclanmanın artırılması qərarı bir neçə faktor nəzərə alınmaqla qəbul edilib. Birincisi, Ermənistanla yekun sülh müqaviləsinin imzalanması uzanır. Bu isə azad olunan ərazilərin bərpasına beynəlxalq təşkilatların, investorların sərmayə yönəltməsinin qarşısını alır. Nəticədə dövlətin bu sahədə yükü ağırlaşır, bərpa prosesinin maliyyələşdirilməsi üçün xaricdən borclanmaya ehtiyac yaradır. Digər bir amil, yüksək inflyasiya şəraitində həyata keçirilən infrastruktur layihələrinin dəyərinin artması və onların icrasına əlavə vəsait cəlbini tələb edir. Bir mühüm məsələ işğaldan azad olunan ərazilərin bərpası yükünün nəsillər arasında bərabər paylanmasını təmin etmək zərurətidir. Çünki bütün xərclərin, yaxud xərclərin mühüm hissəsinin indiki nəslin hesabına maliyyələşdirilməsi ədalət prinsipinin pozulması olardı. Bu baxımdan ağıllı borclanma siyasəti əsasında xərclərin bir qisminin gələcək nəsillərin ödəyəcəyi borclar hesabına maliyyələşdirilməsi daha ədalətli yanaşma olar".

Ekspertin fikrincə, yaşıl enerji layihələrinin icrasına da xarici borcların cəlb olunması lazım gələcək: "Çünki belə borclanmalar həm də layihələrin dəstəklənməsi kimi qəbul olunur. Bu baxımdan Azərbaycanın yaşıl enerji layihələrinə xüsusilə Avropa strukturlarından borcların cəlb olunması gözlənilir".

**İqtisadçı-ekspert Natiq Cəfərli** bildirir ki, mart ayında Prezident İlham Əliyev Almaniya iş adamları ilə görüşündə xarici borclanmanın artacağına dair məlumat verib: "Bu səfər zamanı artıq bilindi ki, Azərbaycan yaxın müddətdə böyük borclanmalara gedəcək. Çünki Prezident Almaniyadakı görüşlərdə söyləmişdi ki, 2030-cu ilədək ərazilərin bərpası və infrastruktur layihələri üçün xaricdən borclanmaya ehtiyac olacaq. İndi bunun üçün hüquqi müstəvi formalaşdırılır. ÜDM-in 30 faizi həcmində borc heç də yüksək və ya təhlükəli deyil. Hətta 40-50 faiz belə təhlükəli hədd hesab olunmur".

Ekspertin fikrincə, Azərbaycanda əsas məsələ borc alınan vəsaitlərin şəffaf xərclənməsidir: "Borc hesabına həyata keçiriləcək layihələrin şəffaf icrası son dərəcə mühüm şərtdir. Bu sahədə, təəssüf ki, Azərbaycanda ciddi problemlər var. Alınacaq borcların ölkəyə fayda gətirməsi üçün həmin problemlərin aradan qaldırılması son dərəcə vacibdir. Bu, ediləcəksə, ölkə iqtisadiyyatı alınacaq kreditlərdən böyük fayda görə bilər. Yox, əgər yenə hər şey əvvəlki qaydada davam edəcəksə, bu borclar gələcəkdə ölkə iqtisadiyyatını qaldırmağa çətinlik çəkəcəyi yükə çevriləcək".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (8273) 9 avqust 2023

# Koronavirusla bağlı şok payız xəbərdarlığı-Azərbaycan da hazırlaşmalı...

## İnfeksionist: “Üzü payıza doğru virusa yoluxmaların artması gözləniləndir”

**Mütəxəssislər xəbərdarlıq edirlər ki, bu payızda COVID-19 yenidən qayıdır. Xüsusilə İngiltərədə koronavirus xəstəliyinə yoluxma hallarının artması narahatlıq doğurur. Tibb alimləri deyirlər ki, ölkədə infeksiyanın yaxın aylarda necə təzahür edəcəyi ilə bağlı proqnoz verməkdə çətinlik çəkirlər. Britaniya Səhiyyə Təhlükəsizliyi Agentliyi də həyəcan təbili çalıb. London Universitetinin professoru Kristina Pagel deyib ki, yeni bir COVİD dalğası var.**

Pagel əlavə etdi ki, payız yaxınlaşdıqca və insanlar məktəbə və işə qayıtdıqca, yoluxanların sayı kəskin arta bilər. “Bəlkə sentyabr ayında dalğanın böyüməyə davam edəcəyini və daha sürətli olacağını görəcəyik”, - deyə o bildirib. Pagel payız və qış üçün bəzi qadağaların, eləcə də maska rejiminin qaytarılmasının zəruri olduğunu vurğulayıb. Mütəxəssislər payızın yaxınlaşması ilə əlaqədar Böyük Britaniyanın peyvənd proqramı ilə bağlı narahatlıqlarını da dilə gətiriblər. Alimlər hətta peyvəndlərin növbəti mərhələsini planlaşdırmaq və hansı yeni spesifik peyvəndin yaradılmasının vacibliyindən də danışırlar. Avqustun ilk həftəsi beynəlxalq statistikaya görə, 189 ölkə və ərazidə 20,9 milyon aktiv koronavirus xəstəsi var. İlk beşlikdə Polşa, Vyetnam, Braziliya, ABŞ və Cənubi Koreya yer alır. Qonşu Rusiyada 147298, İranda 94035, Gürcüstanda 51889, Qazaxıstanda 14963, Ermənistanda 5360 nəfər müalicə altındadır.

Azərbaycanda ilk yoluxma 2020-ci il fevralın 28-də rəsmiləşib. Son hesabata əsasən, ölkədə 832021 nəfər koronavirusa yoluxub, onların 10290-ı vəfat edib, 17-si aktiv xəstədir, qalanları sağalıb. Azərbaycanda quru sərhədlər hələ də bağlıdır və bu qərar koronavirus təhlükəsi ilə izah edilir. Nəzərə alınsa ki, artıq dərs ilinin başlamasına az müddət qalıb, bu virusun yenidən alovlanması nə dərəcədə təhlükəli ola bilər?



Yeri gəlmişkən, ÜST dünən daha bir təhlükəli virus barədə açıqlama verib. **ÜST-ün Tropik Xəstəliklər Bölməsinin rəhbəri Raman Velayudhan** deyib ki, dünya əhalisinin təxminən yarısı “dang virusu” riski altındadır və bu virus təxminən 129 ölkəni əhatə edir. Velayudhan dünya əhalisinin yarısının ağcaqanad dişləmələri ilə ötürülən və qripə bənzər ağır simptomlara səbəb olan viral xəstəlik olan “danq qızdırması” riski altında olduğunu açıqlayıb. Daha yüksək orta temperatur, yağıntılar və daha uzun quraqlıq dövrləri ilə qeyd olunan iqlim dəyişikliyi bütün dünyada rekord sayda danq infeksiyasına səbəb ola bilər. Bəzi hallarda, xüsusən də ikinci dəfə infeksiyaya yoluxduğunuzda, bu, ciddi xəstəliyə səbəb ola və öldürə bilər. 2000-ci ildə yarım milyona yaxın, 2022-ci ildə 4,2 milyondan çox hadisə qeydə alınıb ki, bu da səkkiz qat artım deməkdir".

**İnfeksionist-hepatoloq Mərdan Əliyev** mövzu ilə bağlı “Yeni Müsavat”a dedi ki, koronavirus kəskin respirator viruslar qrupuna aiddir və kəskin tənəffüs yolları xəstəlikləri törədirlər: “Bunlar hava-damcı yolu ilə yoluxurlar. Bu qrup xəstəliklər payız-qış mövsümündə daha aqressiv olur. Daha sürətli yayılmağa meyilli olur. Daha doğrusu, yaz-yay aylarında bunlar bir az sönür, qış aylarında alovlanma müşahidə edilir. Bunun da səbəbi həm insanların evlərə çəkilməsi, havaların soyuması, günəşin aktivliyinin azalması, bir az immun sisteminin zəifləməsi, immun statusda müəyyən dəyişikliklərin edilməsi ilə əlaqəli xəstəliklərin artmasına səbəb olur. O cümlədən evdə olmaq, havanın daha quru olması yoluxmanın artmasına səbəb olur. Bu hallara görə biz də gözləyirik ki, üzü payıza, qışa doğru virusa yoluxmaların artması, yeni alovlanmaların olması gözləniləndir. Niyə gözlənilləndir? Çünki Çin kimi böyük ölkədə, Tayvanda hələ də kollektiv immunitet formalaşmayıb, orada hələ güclü alovlanma ola bilər. Belə olanda da bizim tərəflərə də gəlmə ehtimalı, yeni ştamların meydana çıxma ehtimalı var. Amma hər ölkənin xəstəliyə reaksiya vermə kimi xüsusiyyəti var. Bizdə artıq kollektiv immunitet tam formalaşıb. Düşünmürəm ki, ötən qışdan daha ağır olar. Yoluxma təbii yolla artacaq. Amma o səviyyədə olmayacaq ki, burada müəyyən karantin qaydaları olsun. Maskaların da, peyvəndin də gündəmə gəlməsini gözləmirik. Amma maskanın istifadə olunmasında zərər yoxdur, müəyyən yerlərdə özüm bəzi məkanlarda istifadə edirəm. Tək koronavirusa qarşı yox, qripə, vərəmə qarşı da maska bizi müdafiə edir. O yerdə ki, yoluxma riski var, istifadə edilə bilər. Bununla belə, maskanın yenidən məcburi olması gözlənilmir. Maska və peyvənd, sadəcə, tövsiyə şəklində edilə bilər”.

İnfeksionist əlavə edib ki, yaşlı əhali üçün risk hələ də qalır: “İmmun sistemi zəif, xroniki xəstəliyi olanlar, ağ ciyər xəstəliyi olanlar, ağ ciyər sirrozu olanlar mütləq payızda peyvənd olunmalıdır. Çünki onlar üçün böyük risk var”.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

# Siqaretin qiymətini onlar qaldırıb

## Siqaret aludəçiləri bahalaşmaya etirazlarını bildirsələr də, zərərli vərdişlərdən uzaq olanlar belə bir addımın atılmasını müsbət qarşılayıblar




**Azərbaycanda bütün siqaretlərin qiyməti 10 qəpik artıb. Qeyd olunur ki, buna səbəb firmalar tərəfindən qiymətin artırılmasıdır. Məsələyə münasibət bildirən iqtisadçı ekspert Natiq Cəfərli bakupost.az-a ttps://bakupost.az/-a açıqlamasında deyib ki, son vaxtlar nə aksiz markaları, nə gömrük rüsumları, nə də vergi ilə bağlı heç bir dəyişiklik edilməyib. Deməli, qiymət artımını hökumət etməyib, ortada başqa səbəblər var: “Qeyd edim ki, tütün bazarında kifayət qədər inhisarçılıq var. Tütün məmulatlarını bazara çıxaran və satan şirkətlərin sayı barmaqla sayılacaq qədərdir. Onlar bazarda inhisarçı mövqeyindən istifadə edərək sərbəst şəkildə qiymət artımına gedə bilirlər. Bununla bağlı heç bir qadağa, ən azından hüquqi əngəllər yoxdur. Ona görə də bu addımın əsas səbəbi onlar tərəfindən belə izah olunur ki, son zamanlar yükdaşıma bahalaşıb. Azərbaycan tütün məmulatlarının idxalından kifayət qədər asılıdır. Ona görə də logistikanın bahalaşmasından qiymət artımı üçün bir bəhanə kimi istifadə edirlər. Tütün məmulatları sosial məsələ olmadığına görə, açığı, onun bahalaşması cəmiyyət tərəfindən bir o qədər narazılıqla qarşılaşmır. Ona görə də bu sahədə rahat şəkildə addımlar ata bilirlər”.**

*“Siqaretin qiyməti Tarif Şurası tərəfindən tənzimlənmir. Yəni onun qiymətinə dövlət tərəfindən hər hansı müdaxilə yoxdur”.*

**Bunu isə iqtisadçı-ekspert Xalid Kərimli** siqaretin bahalaşması barədə danışarkən bildirib.

O qeyd deidb ki, siqareti Azərbaycana bir neçə qrup gətirir. Onlar da istənilən qiyməti təyin edir. Yəni söhbət süni qiymət artımından gedir. Hansısa siqareti ölkəyə gətirən şəxs onun üzərində eksklüzivliyə malik olur. O, istədiyi qiyməti təyin edə bilir: “Ola bilsin ki, siqaretin alış qiyməti qalxıb, yaxud da bunu gəlirlərin artırılması məqsədilə ediblər. Hər iki variant mümkündür. Böyük ehtimal ki, siqaretin qiymətini artıranlar daha çox qazanmaq istəyirlər. Ona görə də qiymətləri qaldırıblar”.

Siqaret aludəçiləri bahalaşmaya etirazlarını bildirsələr də, zərərli vərdişlərdən uzaq olanlar belə bir addımın atılmasını müsbət qarşılayıblar. Onların fikrincə, qiymətlərin artımı siqaret çəkənlərin sayının azalmasına gətirib çıxara bilər.

Bundan əlavə, son vaxtlar bəzi xanımların tütün məmulatlarına aludə olması cəmiyyətdə heç də birmənalı qarşılanmır və bu, Azərbaycan qadınına yaraşmayan hərəkət kimi qiymətləndirilir.

*Bəs deputatların buna reaksiyası necədir?*

Məsələ ilə bağlı modern.az-a danışan **Milli Məclisin deputatı Ceyhun Məmmədov** bildirib ki, siqaretdən istifadəni azaltmaq üçün dünyanın bir çox ölkəsində müəyyən addımlar atılır: “Düşünürəm ki, Azərbaycan dünyada ən çox siqaretin istehlak edildiyi ölkələrdən biridir. Təəssüf ki, son vaxtlar bu məsələ qadınlar arasında sürətlə artmaqdadır. Düşünürəm ki, belə qərarın qəbul edilməsi həm də insanları bu kimi zərərli vərdişlərdən çəkindirmək üçündür. Eyni zamanda biz dünyada sürətlə inflyasiyanın getdiyini nəzərə almalıyıq. Dünyanın əksər ölkələrində qiymətlər artır. Əsas məqsəd insanları zərərli vərdişlərdən çəkindirməkdir. Bunun başqa, iqtisadi tərəfləri varsa, düşünürəm ki, buna daha çox istehlakçılar aydınlıq gətirə bilərlər. Məni narahat edən insanların zərəli vərdişlərə meyil göstərməsidir. Xüsusilə də qızların buna maraq göstərməsidir. Biz daha çox maariflərdirmə, təbliğat işləri aparmalıyıq ki, insanları bu kimi zərərli vərdişlərdən çəkindirə bilək”.

**Deputat Naqif Həmzəyev isə** vurğulayıb ki, qiymətin artması siqaret çəkənlərin sayına nisbətən təsir göstərəcək: “Siqaretin qiymətinin artırılması bu zərərli vərdişin daşıyıcılarının sayına az təsir göstərir. Əgər biz həqiqətən də siqaret çəkənlərin sayının azalmasını istəyiriksə, ilk növbədə maarifləndirmə işini gücləndirməliyik. Daha sonra siqareti tərgitmək istəyən vətəndaşlara tibbi yardım göstərilməsi ilə əlaqədar xüsusi proqram həyata keçirməliyik. Bu proqram işlək olmalıdır. Vətəndaşlar proqrama üz tutaraq siqareti tərgitməlidir. Mən nümunə kimi Türkiyəni göstərə bilərəm. Türkiyədə belə bir proqram uzun illərdir ki, həyata keçirilir. Çox yaxşı da nəticələr əldə ediblər”.

N.Həmzəyevin fikrincə, elektron siqaret məsələsinə də ciddi yanaşılmalıdır: “Elektron siqaret məsələsinə də əncam çəkilməlidir. Təəssüf ki, bu gün siqaretdən də təhlükəli olan elektron siqaretlər gənclər, xüsusilə qadınlar arasında geniş yayılmaqdadır. Biz daha çox elektron siqaretə üz tutan, bu növ siqaretdən istifadə edərək sanki daha az zərər görürmüş kimi düşünən gənclərimizi görürük. Bu, çox yanlış təbliğat və marketinqdir. Daha doğrusu, elektron siqaret çəkilməsi üçün irəli atılmış yalan məlumatdır. Əslində biz insanlarımızın səhhətinə daha çox ziyan vururuq. Bizdə qanun qəbul edildi ki, qapalı məkanlarda siqaret çəkilməsi qadağan edilsin. Ancaq buna nəzarət olunmur. Kim harada, necə gəldi siqaret çəkir. Nəticə etibarilə qəbul olunmuş qanunun icra edilməsinə doğru-düzgün nəzarət olmadığının şahidi oluruq. Siqaretlə və digər zərərli vərdişlərlə bağlı məsələ ürəkaçan deyil. Siqaretin qiymətinin artırılması nisbətən bu məsələyə təsir edəcək. Lakin problemi kökündən həll etməliyik. Bu məsələni həll etmək istəyiriksə, aidiyyəti qurumlar sistemli şəkildə işləməlidir”.

❑ **“Yeni Müsavat”**



## İlkin Süleymanovun yeni məhkəməsi başladı

**Avqustun 8-də Gəncə Apelyasiya Məhkəməsi qətldə təqsirli bilinən İlkin Süleymanovun şikayəti üzrə hazırlıq iclası keçirib. Ilkin baxış iclasında təqsirləndirilən şəxsin vəkili Zabil Qəhrəmanov bir sıra vəsatətlər qaldırıb.**

Onlardan biri prosesin istintaqla aparılması, məhkəmə dövründə təqsirləndirilən şəxs barəsində seçilmiş həbs-qətimkan tədbirinin dəyişdirilməsi, bəzi epizodlar üzrə təkrar ekspertizalar aparılması ilə bağlı olub. Vəkil müvəkkilinin həbs olunarkən təzyiq altında ifadə verdiyini də məhkəmənin diqqətinə çatdırıb: "Bütün məsələlər, xüsusilə şübhəli hallar yenidən araşdırılmalıdır. İlkinlə bağlı hökm işin faktini halları ilə qətiyyən uyğunluq təşkil etmir."

Teyyub Muxtarovun sədrlik etdiyi hakimlər heyəti vəsatətləri əsaslı hesab etməyib.

Prosesdə məlum olub ki, Nərmin Quliyevanın ailəsi də hökmdən 1 ay sonra apelyasiya şikayəti verib. Onlar İlkin Süleymanovun cəzasının ağırlaşdırılmasını tələb edirlər. Apelyasiya şikayəti verilməsi müddəti ötdüyünə görə bu məsələyə növbəti iclasda baxılacaq.

Qeyd edək ki, cinayət hadisəsi 2020-ci ildə baş verib. İlkin Süleymanov həmkəndlisi-10 yaşlı Nərmin Quliyevanı oğurlayıb xüsusi amansızlıqla öldürməkdə, cəsədini yandırmaqda ittiham olunur. Ona qarşı Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə), 144.3 (adam oğurluğu) və başqa maddələr ilə ittiham irəli sürülüb.

Gəncə Ağır Cinayətlər Məhkəməsində hakim Dadaş İmanovun sədrlik etdiyi iclasda İ.Süleymanov 18 il müddətinə azadlıqdan məhrum edilib.

İlkin Süleymanov Nərmin Quliyevanın ölümünə aidiyyəti olmadığını deyir. Qeyd edir ki, 2020-ci il yanvarın 6-dan 10-na qədər Tovuz Rayon Polis Şöbəsində işgəncəyə məruz qaldığı üçün ittihamı etiraf ifadəsinə imza atıb.

Vəkilləri və bəzi hüquq müdafiəçiləri İlkin Süleymanovun günahının sübut edilmədiyini bildirir, günahkarların başqa şəxslər olduğu qənaətindədir.

## 53 yaşlı qonşusunu döyüb öldürdü

**Göyçay rayon sakini, 1970-ci il təvəllüdlü Ruslan Süleymanovun döyülərək müxtəlif dərəcəli bədən xəsarətləri alması, göstərilən tibbi yardımlara baxmayaraq, xəstəxanada ölməsi barədə polisə məlumat daxil olub.**

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şəki regional qrupundan məlumat verilib.

İlkin araşdırma zamanı R.Süleymanovla qonşusu, 1988-ci il təvəllüdlü İslam Şıxaliyev arasında şəxsi münasibətlər zəminində baş vermiş dava-dalaş zamanı sonuncunun küt alətlə R.Süleymanovun ölümünə səbəb olan xəsarətlər yetirdiyi müəyyən edilib.

İ.Şıxaliyev polis əməkdaşları tərəfindən şübhəli şəxs qismində saxlanılıb və məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

Faktla bağlı cinayət işi başlanılıb.



# Ekstradisiya səlahiyyəti Baş Prokurorluğa verildi

## Ədliyyə Nazirliyi bu səlahiyyətini itirdi

**Cinayət törətmiş şəxslərin ekstradisiyası sahəsində səlahiyyətli orqanlar dəyişib. Bununla bağlı "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun imzalanıb.**

Qanun Azərbaycanın və xarici ölkələrin müvafiq orqanları arasında hüquqi yardım və ekstradisiya sahəsində qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə hazırlanıb.

"Ekstradisiya haqqında" Avropa Konvensiyasına 2012-ci il sentyabrın 20-də Vyana şəhərində imzalanmış Dördüncü Əlavə Protokol (Azərbaycan Respublikasının müvafiq bəyanatları və qeyd-şərtləri ilə) 2022-ci il 11 oktyabr tarixli 599-VIQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilib.

Dördüncü Əlavə Protokolda Konvensiyanın 10-cu (müddətin keçməsi), 12-ci (sorğu və əlavə sənədlər), 14-cü (konkretlik qaydası), 21-ci (tranzit) maddələri yeni redaksiyada verilmiş, 15-ci (üçüncü dövlətə verilmə) maddəyə yeni bənd əlavə edilib, Konvensiyaya kommunikasiya kanalları və vasitələri, habelə dostcasına həlledilmə adlı yeni müddəaların əlavə olunması nəzərdə tutulub.

Bundan başqa, Dördüncü Əlavə Protokolla təsdiq edilmiş bəyanata əsasən, ekstradisiya məsələləri ilə bağlı səlahiyyətli orqanın funksiyalarının yenidən tənzimlənməsi məqsədilə Konvensiyanın 12-ci maddəsinin 1-ci bəndində göstərilən səlahiyyətli orqanlar qismində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Baş Prokurorluğu nəzərdə tutulub.

Qeyd olunanları nəzərə alaraq, qanunda cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) üzrə səlahiyyətli orqan qismində Azərbaycan Respublikası Baş Prokurorluğunun və müvafiq icra hakimiyyəti orqanı müəyyən edilib.

Bundan başqa, "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci maddəsində müəyyən edilmiş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Daxili İşlər Nazirliyi həyata keçirir. Dəyişikliyə görə, həmin səlahiyyətlərin Azərbaycan Respublikasının səlahiyyətli orqanına və müvafiq icra hakimiyyəti orqanına verilib.

Ekstradisiya (cinayətkarların təhvil verilməsi) - cinayət törədən şəxsin ərazisində olduğu dövlətdən ərazisində cinayətin törədildiyi dövlətə, yaxud da cinayətkarın vətəndaşı olduğu dövlətə verilməsidir. cinayətkarlıqla mübarizədə dövlətlərin beynəlxalq əməkdaşlıq forması. Cinayətdə şübhəli bilinən və ya təqsirləndirilən, eləcə də cinayətdə ittiham olunan həbs edilmiş şəxsin bir dövlətdən başqa bir dövlətə (birincinin müraciətinə əsasən) ötürülməsi. Son dövrlərdə "ekstradisiya" terminini düzgün olmayaraq "deportasiya" termininin yerinə işlədirlər.

"Cinayət törətmiş şəxslərin verilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu 2001-ci il mayın 15-də qəbul edilmişdir. Qanuna əsasən, aşağıda sadalanan hallarda cinayət törətmiş şəxs başqa dövlətə verilə bilməz: 1. Şəxs onun verilməsi haqqında məsələ həll edildiyi zaman Azərbaycan Respublikası vətəndaşı olduqda 2. Verilməsi haqqında sorğu edilən səxsə Azərbaycan Respublikasının ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada siyasi sığınacaq verildikdə 3. Verilməsi haqqında sorğu edilən şəxsin törətdiyi və verilməyə əsas olan əməl Azərbaycan Respublikası tərəfindən siyasi xarakterli cinayət sayıldıqda 4. Verilməyə əsas olan cinayət Azərbaycan Respublikasının ərazisində törədildikdə 5. Şəxsin verilməsinə əsas olan cinayətə görə Azərbaycan Respublikasının ərazisində qanuni qüvvəyə minmiş hökm çıxarıldıqda və s.

**Afaq MİRAYIQ, "Yeni Müsavat"**

# Sabirabadda narkotikə görə həbslər

## İrandan Azərbaycana 15 kiloqram narkotik keçirmək cəhdinin qarşısı alındı



**Sabirabadda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaqda şübhəli bilinən rayon sakini Pərvin Nağızadə saxlanılıb.**

DİN-in Mətbuat Xidmətinin Şirvan regional qrupundan verilən məlumata görə, onun üzərinə keçirilən baxış zamanı 4 qramdan artıq, idarə etdiyi "Mercedes" markalı avtomobilə baxış zamanı isə 825 qram heroin və 1 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb.

Dindirilmə zamanı P.Nağızadə narkotik vasitəni sosial şəbəkədə tanış olduğu İran vətəndaşından onlayn yolla aldığını bildirib.

Şöbə əməkdaşları tərəfindən keçirilən digər bir əməliyyat tədbiri zamanı isə rayon sakini, əvvəllər də narkotiklərə görə məhkum olunmuş Azər Əsədov saxlanılıb. Polis əməkdaşı tərəfindən sonuncunun yaşadığı ünvana keçirilən baxış zamanı 1 kiloqrama yaxın heroin aşkarlanaraq maddi sübut kimi götürülüb.

Sabirabad RPŞ-nin əməkdaşları tərəfindən son günlərdə bu istiqamətdə keçirilən əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olmaqda şübhəli bilinən ümumilikdə 13 nəfər saxlanılıb. Onlardan yaş çəkisi 320 kiloqramdan artıq olan 107 ədəd çətənə kolu, 3 kiloqrama yaxın heroin, metamfetamin və marixuana aşkarlanıb.

Həmçinin qeyd edilən dövr ərzində rayon ərazisində oğurluq faktları törədərək zərərçəkmişlərə maddi ziyan vuran 5 nəfər şəxs də müəyyən edilərək istintaqa təqdim olunub.

Aşkarlanan bütün faktlarla bağlı Sabirabad RPŞ-nin İstintaq Bölməsində cinayət işləri başlanılıb, araşdırmalar davam etdirilir.

İrandan Azərbaycana narkotik keçirilməsinin isə qarşısı alınıb. Bu barədə Dövlət Sərhəd Xidməti məlumat yayıb.

Bildirilib ki, avqustun 6-da saat 13:55-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Qazaxlar kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadının sayıqlığı nəticəsində külli miqdarda narkotik vasitənin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə Azərbaycana keçirilməsinin qarşısı alınıb.

Keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ümumi çəkisi 15 kiloqram 195 qram narkotik vasitə marixuana aşkar olunaraq götürülüb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# "Tərtər işi": "General Həsənovu və bu polkovnikləri həbs etməsəniz..."

## Babək Baxşəliyevin hüquqi varisi, qardaşı Bəhruz Baxşəliyev Ali Məhkəmə sədrinə nə məktub yazıb?

**Sumqayıt Məhkəmə Kompleksində Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə "Tərtər işi" üzrə daha bir qrupun cinayət işi üzrə məhkəmə prosesi davam edir. Müttəhimlər kürsüsünə hərbi hissə komandiri olmuş polkovnik Vüsal Ələsgərov, hərbi hissənin qərargah rəisi Rəşid Niftəliyev, o dövrdə müddətdən artıq xidmət edən hərbi qulluqçular Ramil Qarayev və Rüstəm Ələsgərov çıxarılıblar.**




İş üzrə 185 nəfər hərbçi zərərçəkən qismində tanınıb.

Hakim Zeynal Ağayev prosesdə iş üzrə zərərçəkmiş Babək Baxşəliyevin hüquqi varisi, qardaşı Bəhruz Baxşəliyevin Məhkəmə Hüquq Şurasına, Ali Məhkəmə sədrinə ünvanladığı məktubu elan edib.

Məktubunda Bəhruz Baxşəliyev məhkəmənin qeyri-obyektiv aparıldığını, əsas günahkarlar- general Hikmət Həsənov, hərbi hissə komandiri, polkovnik Teymur Məmmədovun, Qiyas Abbasov və digərlərinin dəfələrlə vəsatət qaldırmalarına baxmayaraq, istintaqa cəlb edilmədiklərini qeyd edib. Bildirib ki, belə bir vəziyyətdə məhkəmədə iştirak etməyi mənasız sayır. Qeyd edir ki, əsas cinayətkar olan bu şəxslərin istintaqa, məhkəməyə cəlb ediləcəyi halda prosesə qatılacaq.

Məktub elan edildən sonra Biləcəri qəsəbəsində yerləşən hərbi polis şöbəsinin rəisi Bəhruz Musayev şahid qismində ifadə verdi.

Bildirdi ki, 2017-ci ilin aprelində Baş Prokurorluqdan və Müdafiə Nazirliyindən ona ümumi rəhbərlik etdiyi hauptvaxtaya hərbçilərin gətiriləcəyini və müvafiq yer hazırlamasını tapşırıblar. O da tapşırığa uyğun yerlər hazırlatdırıb. Şahid deyib ki, o zaman Tərtərdə hadisələr olmasını eşidib. İlk olaraq hauptvaxtaya 15 nəfər gətirilib: "Şəxsi heyəti yığıb dedim ki, gətirilənlərdən kimsəni söyməyin, döyməyin. Gündə 3 dəfə yemək verilirdi. Orada bir neçə hərbçinin əlində, üzündə xəsarətlər vardı. Tibb işçilərinə tapşırmışdım ki, onların sarğısını vaxtında dəyişsinlər.

**Hakim:**

- Elə danışırsız ki, guya ora istirahət mərkəzidir.

**Dövlət ittihamçısı Orxan Səfərov:**

- Zərərçəkən Vasif Ağayev ifadəsində dedi ki, hauptvaxtda ona günlərlə su verilməyib. Siz də gündə 3 dəfə yemək verildiyini deyirsiz.

**Şahid**:

- Mən hauptvaxta rəisi deyiləm. Hauptvaxt rəisinə göstəriş vermişdim ki, yemək versinlər.

**Zərərçəkmiş Fərzəli Cahangirov məhkəmədən söz istədi:**

- Bu adam məhkəmədə yalan danışır. Bizi 10 gün saxlaya bilərdilər orda. 10 gün də əlavə olaraq qanunsuz saxlayıblar. Həmin 20 gün ərzində bizim əl-qolumuz, gözümüz bağlı vəziyyətdə olub. Bizi it günündə saxlayırdılar. "Tapçan"ları (yataq yeri) açmırdılar, bizi ayaq yoluna belə aparmırdılar. Orada 5 nəfərə pampers bağlamışdılar. Həmin 20 gündə cəmi 1 dəfə bizi yuyunmağa apardılar. Onda da əynimizdə paltar ola-ola başımıza buz kimi soyuq suyu tökub geri qaytarıblar.

**Hakim:**

- Sizin hərbçiləri hauptvaxtda 10 gündən artıq saxlamaq səlahiyyətiniz vardı?

- Müəyyən hallarda vardı. Məsələn, hauptvaxtda daxili qaydaları pozanda.

**Zərərçəkən Boris Cəfərov da şahidi yalan danışmaqda ittiham etdi:**

- Mən 10 gün sarğılı vəziyyətdə Biləcəridə hauptvaxtda olmuşam. Tualeti bağlamışdılar, "tapçan"ları da açmırdılar. Məcbur yerdə betonun üstündə yatırdıq. Əlim, gözlərim bağlı idi. Qanım da aşağı düşmüşdü deyə soyuqdan dayana bilmirdim. Oradakı MAXE-lərdən buşlat istəyirdim, vermirdilər. Bu da yalandan deyir ki, guya orada yaxşı şərait olub".

**Zərərçəkən Vasif Cəfərov da şahidi yalan danışmaqda ittiham etdi:**

- Xəyyam bizə daş kimi qara çörək verdirirdi. Yeməyəndə də başımıza dubinka ilə vururdular. Məni niyə bu günə qoymusuz? Niyə burada gəlib yalan danışırsan? Orada bizə su belə vermirdiz. Gündə 3 dəfə yeməkdən danışırsan.

**Təqsirləndirilən Vüsal Ələsgərov söz istədi:**

- Mənə Cinayət Məcəlləsinin 145.3-cü maddəsi ilə ittiham verilib, əslində isə həmin maddə ilə Hərbi Prokurorluğun, Baş Prokurorluğun rəsmilərini cəlb etmək lazım idi. Mən kim idim ki, bu adamları qanunsuz saxlayım? Siyahılar gəlirdi ki, filan hərbçiləri göndərin, mən də göndərirdim. Mən verilən əmrləri icra etmişəm.

Növbəti şahid Nəcəf Xudiyev oldu. Sərbəst ifadəsində bildirdi ki, verilən göstəriş əsasında 5-10 hərbçidən izahat alıb. Həmin izahatları da qərargahda Eldəniz İsmayılova təhvil verib. İzahatları hərbçilərdən alanda onlara düşmənlə əməkdaşlıq edib-etməmələri ilə bağlı sual verib. İzahat aldığı hərbçilər düşmənlə əməkdaşlıq etmədiklərini bildiriblər.

Vüsal Ələsgərov da şahidə özünün qanunsuz əmr verib-verməməsi ilə bağlı sual ünvanlayıb. Şahid onun belə bir əmr vermədiyini deyib.

Şahid İldırım Ramazanov 1-ci Ordu korpusunun mənzil-istismar sahəsinin rəisi olub. O, məhkəmədəki sərbəst ifadəsində bildirdi ki, ona Şıxarx qəsəbəsində yerləşən köhnə briqada binasını açmaq göstərişi verilib. Orada qonaqların gələcəyini bildiriblər. Oranı açdıqdan sonra su və elektrik xətlərini təmir ediblər. Şahid bildirib ki, oradakı binada hərbçilərə işgəncə verildiyini səslərdən bilib. Həmin binanın həyətində Hikmət Həsənovu, Babək Səmidlini, Fuad Ağayevi, Teymur Məmmədovu görüb.

Şahid bildirib ki, binada hərbçilərin saxlanıldığı otaqlarda pəncərələr olmayıb. Ona görə də pəncərələrə "klyonka" çəkib, əsgər "krovat"ları qoydurub. O zaman Babək Səmidli ona mane olmaq istəyib: "Dedi ki, bunlar vətən xainləridir, pəncərələrə "klyonka" vurma". Lakin mühafizədən ona dedilər ki, bu işlərə qarışmasın. Orada şəxsi heyətə cəza verildi. Bir-iki nəfər tanıdığım MAXE-lər vardı, onlara da işgəncə vermişdilər. başlarına o qədər vurmuşdular ki, tükləri tökülmüşdü. Bədənləri də həddindən artıq şişmişdi".

Şahid bildirib ki, orada hərbçilərdən biri özünü pəncərədən atandan sonra pəncərələrə dəmir məhəccərlər vurulub. Şahid İlyas Hüseynov ifadə verəndən sonra söz digər şahid Mətləb Şirinova verilib. O bildirib ki, hərbi hissə komandiri Teymur Məmmədovun tapşırığına əsasən, Şıxarxdakı köhnə briqada binasını mühafizə ediblər. Şahid iddia edib ki, orada kimsəyə işgəncə verilməsini görməyib.

Dövlət ittihamçısı vəzifəlilərdən ərazidə kimləri gördüyünü sual edib. Şahid deyib ki, Hikmət Həsənov, Cəfər Seyidov, prokurorluğun rəhbərliyi orada olub.

Şahid orada 1 nəfərin özünü pəncərədən ataraq öldürdüyünü eşitdiyini bildirib.

Qeyd edib ki, mühafizə etdikləri əraziyə 3 nəfər yaxınlaşıb. O, həmin şəxslərə geri qayıtmalarını tapşırıb. Onlardan ikisi geri qayıtsa da, Bəhruz Novruzov geri qayıtmayıb, deyib ki, içəri girib oradakıların üzünə tüpürmək istəyir. Onun israrından sonra onu içəri aparıblar, özünə də işgəncə veriblər.

Təqsirləndirilən Vüsal Ələsgərov şahidə sual verdi:

- Gəlib-gedənlər barəsində kimə məlumat verirdiz?

- Hərbi hissə komandirinə. O, icazə verirdisə, içəri buraxırdıq.

- Teymur Məmmədov burada ifadə verdi və dedi ki, məndən belə bir icazə alınmayıb. Siz Teymur Məmmədova şər atırsız!

- Mən ona demişəm.

"N" saylı hərbi hissənin kəşfiyyat rəisi Anar Ramazanov bildirib ki, Hikmət Həsənovun köməkçisi Fuad Ağayevin göstərişinə əsasən, şəxsi heyətdən mühafizə altında qərargaha göndərib.

Hakim şahiddən soruşub ki, o, kimsə işgəncə verib? Şahid isə belə bir halın olmadığını bildirib. Hakim zərərçəkən Nemət Məhərrəmovun məhkəmədə ona işgəncə verən şəxs kimi Anar Ramazanovun adını çəkdiyini deyib:

-Nemət Məhərrəmov dedi ki, onu suda boğublar. Sudan çıxarılandan sonra gözünü açanda görüb ki, ona işgəncə verənlər arasında sən də varsan.

Zərərçəkən Boris Cəfərov da bildirib ki, Anar Ramazanov onu qərargaha göndərəndə şəxsi əşyaların alıb və bu günə qədər də qaytarmayıb. Anar Ramazanov belə bir halı xatırlamadığını bildirib.

Məhkəmədə şahid qismində ifadə verən tabor komandiri, mayor Daşqın Süleymanov bildirib ki, aprelin 30-da Turan İbrahimovun itkin düşməsi barədə məlumat alıb və onun axtarışlarına başlayıb. Onu tapandan sonra köhnə qərargaha aparıblar. Orada nə baş verdiyindən sonradan xəbər tutub. Bilib ki, ora aparılan şəxsi heyətə işgəncə verilir.

İşgəncələr zamanı həyatını itirən mərhum Elçin Quliyevin anası Validə Əhmədova bildirib ki, onun oğlunu da Daşqın Süleymanov aparıb:

- Anar Allahverdiyevlə bizə gəliblər. Daşqın bizə dedi ki, qurbanlıq quzu axtarırlar. Niyə yalan deyirdin?

- Teymur Məmmədov göstəriş vermişdi ki. Elçin Quliyevi gətirin. Mən də onu sizə deməmək üçün belə bir söz dedim.

- Bəs işgəncədən 1 həftə zorla su maşınını niyə oğluma verirdin?

- O normal hərbi qulluqçu idi. Ona görə də ona verirdim ki, maşını dağıtmayacaq.

- Axı oğlum heç o çörək maşınına xərclədiyi 3 min manat borcu verib qurtarmamışdı. Niyə apardın mənim oğlumu?

- Mənə tapşırıq verilmişdi.

- O siyahıları kim tərtəib edirdi?

- Bilmirəm.

- Hikmət Həsənov mənim oğlumu haradan tanıyırdı ki, adını da siyahıya sala?

- Bilmirəm.

- Ən ağır işgəncə sizin rəhbəri olduğunuz taborun şəxsi heyətinə verilib. Niyə buna etiraz etmirdiz?

- Bizə qulaq asan vardı?

2017-i ildə işgəncələrlə öldürülən zabit Təmkin Nizami oğlunun atası Nizami Quliyev də şahidə bir neçə sual verib. Soruşub ki, onun komandiri olduğu tabordan 100-ə yaxın hərbçi işgəncələrə məruz qaldığı halda, onlardan 4 nəfəri işgəncələrlə öldürüldükləri zaman o niyə susub? Deməyib ki, onun taborundan ermənıyə işləyənlər yoxdur?

Şahid bildirib ki, onun özünü də o zaman aparmaq istəyiblər. Son anda hərbi hissə komandiri Teymur Məmmədov onu aparmağa gələnlərə geri qayıtmaları göstərişini verib.

Şahidlər Tamerlan Bəşirli və İlham Hüseynov ifadə verəndən sonra proses növbəti həftəyə qədər təxirə salınıb.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 137 (8273) 9 avqust 2023
Avqust

## Bunları bilirsinizmi?

* Qarışqa öz ağırlığının 50 qatını qaldıra bilər.
* Yarım kilo bal hazırlamaq üçün arılar iki milyondan çox çiçəkdən nektar toplamalıdırlar.
* Tarakanlar təxminən 250 milyon il yaşasalar da, heç bir dəyişikliyə məruz qalmayıblar.
* Kenqurular geriyə doğru yeriyə bilməzlər.
* Fillər tullanmayan yeganə məməlilərdir.
* Bir inək həyatı boyu təxminən 200.000 stəkan süd istehsal edir.
* Erkək pinqvinlər 4 aylıq inkubasiya dövründə heç nə yemirlər.
* Siçan susuz dəvədən də çox qala bilər.
* Köçəri quşlar "V" formasında uçur və beləliklə, sərf etdikləri enerjinin 23 faizini qənaət edirlər.
* Xəstələnməyən yeganə heyvan köpəkbalığıdır.
* Bir ildə dənizlərdən tutulan balıqların çəkisinin üç qatı dənizlərə atılır.
* Tibetdə çay fincanını iki əllə tutmamaq hörmətsizlikdir.
* Lobsterlərin mavi qanı var.
* Köstəbək bir gecədə 90 metrlik tunel qaza bilir.
* Bir ilbizin dişlərinin sayı 25 minə çata bilər.
* İlbizlər yemək yemədən üç il yatır.
* Zürafələrin səs telləri yoxdur.
* Qütb ayıları solaxaydır.
* Pişiklərin beynində 32 əzələ var.
* Kəpənəklər ayaqları ilə dad verirlər.



## Həddindən artıq istidə bu qidaları qəbul edin

**İstidə tez-tez soyuq bir şey içmək istəyinin olmasına baxmayaraq, bu içkilər susuzluğu çox zəif yatırır və insan bədəninin termorequlyasiya xüsusiyyətlərinə görə bədəni tez tərk edir. Şirin içkilər qəbul etməyin də heç bir mənası yoxdur.**

Onlar yalnız susuzluğun artmasına səbəb olur və əksəriyyəti zərərlidir. Xüsusilə mütəxəssislər istidə çox soyudulmuş olmayan adi su içməyi məsləhət görürlər. Suya limon, nanə və ya meyvə qarışdıra bilərsiniz.

İsti olduğunuz zaman bədən termorequlyasiyanı işə salır, tər buraxır, bu da bədəndən duz və digər iz elementlərini atır. Buna görə də istidə düzgün qidaları yemək vacibdir ki, bu da orqanizmə mikroelementlərin balansını bərpa etməyə və susuzlaşdırma ilə mübarizə aparmağa kömək edəcəkdir.

Duz yeməyi dayandırmaq lazım deyil. Tərəvəz və meyvələrin çoxu ilk növbədə sudan ibarətdir, ona görə də onları yeyəndə nəinki vitamin və minerallar alırsınız, həm də bir az maye içirsiniz.

Belə ki, həkimlər isti havalarda xiyar (suyun nisbəti 96%-ə çatır), pomidor (93%), qarpız (90%), çiyələk (90%), qreypfrut (88%), ərik və alma (85%), albalı və gilas (82-83%) yeməyi tövsiyə edir.

Həkimlər həmçinin yay pəhrizinizə soyuq şorbalar əlavə etməyi məsləhət görürlər - onlar çoxlu qida maddələrini ehtiva edir və eyni zamanda orqanizmin su balansını doldurur.

# Rusiyada uşaqlar kimsəsiz adada ilişib qaldılar



**Rusiyanın Primorsk diyarının Askold adasında gənclərin elmi-maarifləndirici görüşünə qatılan 17 uşaq orada ilişib qalıb.**

Uşaqlar avqustun 5-dən materikə qayıda bilmirlər. Səbəb pis hava şəraiti və yüksək dalğalardır. Bu barədə regional Mülki Müdafiə və Fövqəladə Hallar Nazirliyindən məlumat verilib.

"Gənclərin elmi-maarifləndirici görüşü avqustun 5-də başa çatsa da, pis hava şəraiti uşaqların adanı tərk etmələrinə imkan vermir", - nazirliyin "Telegram" kanalında bildirilib.

Düşərgə təşkilatçıları vəziyyəti nəzarətdə saxlayırlar. Adada uşaqlarla birlikdə bu cür vəziyyətlərə hazırlıqlı olan böyüklər də var. Onların 50 nəfərlik dərman, su, bir həftəlik qida ehtiyatı var.

"Uşaqlar fırtınalı hava şəraitinə davamlı olan panel isti evlərdə məskunlaşıblar. Düşərgədə stasionar mətbəx fəaliyyət göstərir, bir həftəyə yetəcək yanacaq ehtiyatı və iki generator var", - deyə məlumatda qeyd edilib.

Sabah dalğaların azalacağı gözlənilir və bu, baş verən kimi adaya uşaqları çıxarmaq üçün gəmi göndəriləcək.

## Yayda niyə enerjisiz oluruq?

**Hava nə qədər isti olarsa, bədəndə temperaturu normada saxlamaq, yaxınlarımızla ünsiyyət qurmaq və hətta gəzmək üçün enerji azlığı yaranır. Biz düşünürük ki, yayda enerjili olacağıq, amma əksinə olur. Terapevt Oleq Perkuşinin sözlərinə görə, belə sadə üsulla orqanizm istiyə uyğunlaşmağa çalışır. Sözün əsl mənasında, enerjiyə qənaət edir, insanı fəaliyyət üçün gücdən məhrum edir ki, havanın istiliyindən orqanizm salamat çıxa bilsin. "İstidə damarlarda qanın hərəkəti və ürək dərəcəsi yavaşlayır. Hamısı ekstremal şəraitdə sağ qalmaq üçün mübarizə aparır.**

Beləliklə, yayda özünüzü daha yaxşı hiss etmək üçün daha çox yatmaq lazımdır. Bu qayda həm böyüklər, həm də uşaqlar üçün eyni dərəcədə doğrudur.

Düzdür, buna əməl etmək üçün böyüklər uşaqlardan daha çox səy göstərməli olacaqlar. Ən azı otaqda səliqəli işıq, təmiz hava və səssizliyi təmin etmək lazımdır.

Mümkünsə, yaxşı olar ki, cib telefonunuzdakı zəngi bir saat söndürəsiniz. Bu, rahatlamağa və daha yaxşı istirahət etməyə kömək edəcək. Nəticədə siz təkcə sağlamlığınızı xilas etməyəcəksiniz, həm də məhsuldarlığınızı artıracaqsınız.

Əsasən qazsız adi su içmək, təbii materiallardan açıq rəngli paltarlar geyinmək, küçədə panama papağı geyinmək və ya çətir altına sığınmaq lazımdır".

## Şirniyyat sizi kökəldirsə, bunu edin

**Artıq çəki almağımıza səbəb olan amillərdən biri də şirniyyatdır. Bəziləri gün ərzində şirniyyat yemədən dayana bilmirlər. Bu, bəzən xəstəlik də ola bilər. Bunun üçün şirniyyat həvəsinin nədən yarandığını öyrənmək üçün əvvəlcə həkimə müraciət etməyiniz məsləhətdir. Əks halda şirniyyat yemək istədikcə, onu başqa kalorisi az olan qidalarla əvəzləməyə çalışın. Qida rasionunuza qara düyü, bulqur, kəpəkli makaronlar, yulaf və quru meyvələr daxil edin. Bunlar sizi tox saxlayacaq. Əgər ürəyiniz çox şirniyyat istəyərsə, yağ faizi aşağı olan yoqurt yeyin. Şokolad arzununuzu isə acı şokoladla əvəzləyə bilərsiniz.**

## İtalyan iş adamı pendirlərə görə həlak oldu



**İtaliyalı iş adamı Cakomo Kyapparini özünə məxsus pendir fabrikində pendir rəflərinin üzərinə aşması nəticəsində dünyasını dəyişib.**

"Grana Padano" pendir korporasiyasının sahibi üzərinə 25 min baş pendir düşəndən sonra yoxa çıxıb. Bütün gecə davam edən axtarışlar nəticəsində 75 yaşlı kişinin meyiti tapılıb.

Hadisə Berqamo əyalətindəki pendir fabrikində baş verib. Ehtimallara görə, Cakomo Kyapparini fabrikin iş zamanı cihazın fəaliyyətini tənzimləyirmiş.

Qeyd edək ki, Kyapparininin mülkiyyətində 100 hektardan çox kənd təsərrüfatı torpaqları var. Müəssisə ildə 15 min baş pendir istehsal edir.

"Grana Padano" isə parmesan dadında, sərt və yarımyağlı pendirdir.

## Süni intellektin daha bir təhlükəsi



**Süni intellekt istənilən parolları klaviaturanın səsi ilə "sındırmağı" öyrənib. Bildirilir ki, britaniyalı tədqiqatçılar və proqramçılardan ibarət komanda 95%-ə qədər dəqiqliklə mikrofondan istifadə etməklə qeydə alınan klaviatura düymələrini mənimsəmək üçün süni intellektə təlim keçib. Tədqiqatçılar ehtiyat edirlər ki, belə bir "səsli" hücum maşın öyrənməsinin sürətli inkişafı ilə birləşərək, tezliklə hakerlərə kompüterləri daha asan sındırmaq imkanı verəcək.**

## Dubayda təyyarədə ayı qəfəsdən çıxıb baqajı dağıtdı



**Dubaydan İraqa uçan təyyarə ayıya görə ləngiyib.**

Məlumata görə, təyyarənin yük hissəsində daşınan ayı olduğu qəfəsdən çıxıb və oradakı baqajı dağıtmağa başlayıb. Ayını heç cür sakitləşdirmək mümkün olmadığından məcburən yatızdırılıb.

"Ayı beynəlxalq heyvanların mühafizəsi qaydalarına əsasən daşınır", - deyə aviaşirkətdən bildirilib.

Qeyd edək ki, ayını yük yerində kimin daşıdığı barədə xəbər açıqlanmır.

## Əfqanıstanda xeyriyyə ziyafətində 450-dək insan zəhərlənib

**Əfqanıstanın Host vilayətində xeyriyyə ziyafətindən sonra 450-yə yaxın insan zəhərlənib. Bu barədə Əfqanıstanın İctimai Səhiyyə Departamentinin rəhbəri Fəzal Kərim Mandozay məlumat verib. "Ümumilikdə, 90-ı uşaq, 120-si qadın olmaqla, 450-yə yaxın insan müalicə olunur", - deyə o bildirib.**

Departamentin rəhbəri qeyd edib ki, hazırda zəhərlənmənin nədən baş verdiyi məlum deyil. İlkin səbəb kimi aşpazların yemək bişirmə prosesində yol verdikləri səhlənkarlıq göstərilir. Yerli polis nümayəndəsinin sözlərinə görə, hadisə ilə bağlı təhlükəsizlik xidməti araşdırma aparır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Sifariş: 2040
Lisenziya N: B 114
SAYI: 1.500